

# Üçtərəfli razılaşmanın pozulmasının pərdəarxası...

*44 günlük müharibədə qalib gələn Azərbaycan tərəfinin haqlı mövqeyi 10 noyabr bəyannaməsində təsdiqlənsə də, Ermənistan tərəfi müxtəlif müstəvilərdə təxribatlar törəməkdə davam edir. Vasitəçi tərəf kimi Rusiyanın razılaşmaya ziddi addımlar atan Ermənistanın təxribatlarına isə lazımi səviyyərə reaksiyası yoxdur. Görünən odur ki, Rusiya üç tərəfli bəyannamənin yerinə yetirilməsində maraqlı deyil.*

Səh.9



# Eldəniz Səlimov dərsi


# UNİKAL

№28 (2066) 6 avqust 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




Səh.2

# İlham Əliyev və Emmanuel Makron razılığa gəldi

## Və ya vəzifəli şəxslərin, səlahiyyət sahiblərinin iki seçimi haqqında bir neçə söz...

*Azərbaycanda belə bir məşhur atalar sözü var: "O dağa qar yağdı, bu dağa xəbərdir".*

*Hələ ötən ay Azərbaycanda bir deputatın atasının sahibi olduğu şirkətlə bğlı qalmaqal yaşanmışdı. Həmin vaxt Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaydığı məlumatda deyilirdi ki, Xaçmaz rayonunun Fərzəlioba kəndində xüsusi mülkiyyətdə olan təqribən 27 hektar sahədə "Qərb Ekol" şirkəti tərəfindən aqrobağ salınması məqsədilə müxtəlifcinsli ağac və kol bitkiləri kəsilib, təbiətə ümumilikdə 65 040 manat məbləğində ziyan vurulub. Ziyanın məbləği cinayət tərkibi yaratdığından sənədlər Xaçmaz rayon prokurorluğuna göndərilib. O zaman məsələyə münasibət bildirən deputat isə demişdi ki, məsələyə onun aidiyyəti yoxdur. Onun açıqlamasından belə qənaətə gəlmək olurdu ki, atasının işinə qarışmır.*

Səh.5

## "Hamı bilməlidir ki, heç kim toxunulmaz deyil"



*Bir müddət öncə hakimiyyətlə müxalifət arasında dialoq mühitinin yaradılması istiqamətində müəyyən addımlar atılsa da ortada konkret nəticələr yoxdur. Belə ki, hansısa siyasi islahatların aparılması üçün geniştərkibli görüşlərin şahidi oluruq. Lakin milli və dövlət əhəmiyyətli məsələlərdə siyasi qüvvələrin...*

Səh.4

## Qarabağın bərpası Qarabağ həqiqətlərinin dünyaya çatdırılması ilə paralel aparılmalıdır!



*44 günlük savaşdan sonra Qarabağ dirçəlişbərpa dövrünü yaşayır. İşğaldan azad olunmuş Qarabağda minaların təmizlənməsi ilə paralel olaraq, dağıdılmış ərazilərin bərpası istiqamətində də işlər aparılır. Qarabağda quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsində 2,2 milyard...*

Səh.11

## Elman Rüstəmov yanlış yoldan qayıdır, yoxsa...



*Ötən həftə Mərkəzi Bankın (AMB) Baş direktoru Toğrul Əliyev keçirdiyi mətbuat konfransında maraqlı rəqəmlər səsləndirdi. O bildirdi ki, 2021-ci ilin ilk birinci yarısını 22 bank 372 milyon manat xalis mənfəət ilə, 4 bank isə 6,3 milyon manat xalis zərər ilə başa vurub.*

Səh.8

# "Natavanla problemi danışmaq kişiliyə yaraşan şey deyil"



***Dado ləqəbli tanınmış repçi Səid Əliyev müğənni Natavan Həbibi ilə münasibətlərinin tamamilə bitdiyini etiraf edib.***

"Unikal" qafqazinfo-ya istinadən xəbər verir ki, o, bu barədə "Abşeron Maqazin" proqramına açıqlamasında bildirib. Repçi ailəsinin dağılmasında səbəbkar kimi kənar şəxslərin müdaxilə etməsini göstərib: "Problem Natavanla mənim aramda deyil. Başqa məsələlərdir. Elə bir problemdir ki, onu danışmaq kişiliyə yaraşan şey deyil. Həyat belə gətirdi. Natavana qarşı heç bir kinliliyim yoxdur. O, xanım mənə pis heç nə etməyib. Çox uzun müddətdir susurduq. Boşandığımızı uşağa görə heç kimə demirdik. Amma bu susqunluq çox şeyə səbəb ola bilərdi. Bu səbəbdən mən boşandığımızı instaqram səhifəmdə qeyd elədim. Bəli, 1 ilə yaxındır ki, aramızda heç bir münasibət yoxdur. Ona qarşı sevgim qalmayıb. Evlənəndə hər şeyə eyni baxırdıq. Sevgini sındırmağa nə var ki? Geri dönmək fikrim də yoxdur. Bu haqda ilk dəfə danışıram, insanlar deyir ki, Dado Natavanın sayəsində gündəmə gəldi, pul qazandı. Əgər mən Natavanın hesabına gündəmə gəlsəydim indi maddi imkanım daha yaxşı olardı, maşınımı dəyişərdim. Elə bir şey yoxdur. Mən evlənmək fikrində deyildim. Sadəcə Natavanla eyni sənəti bölüşdüyümüz üçün ailə həyatı qurduq. Fikirləşirdik ki, bir-birimizi başa düşəcəyik. Amma olmadı".

Dado oğluna olan sevgisindən də danışıb: "Boşansaq da uşaqla görüşürəm. Əvvəllər daha tez-tez görürdüm. İndi az görüşürük. Məni bu həyatda tutan oğluma olan sevgimdir. Ata olduğum üçün çox xoşbəxtəm. Ana-atamı nənə baba etdiyim üçün sevinirəm".

Qeyd edək ki, cütlük 2017-ci ildə ailə qurub. Onların bu nikahdan Zeyd adlı bir oğlan övladı var.

## "Nüşabənin yanında aslan kimi əri var"



***Müğənni Nüşabə Ələsgərli aparıcı Xoşqədəm Hidayətqızı və onun həyat yoldaşı türkiyəli ulduz Doğuşla fotosunu paylaşıb.***

"Unikal" sherq.az-a istinadən xəbər verir ki, sənətçinin paylaşımı izləyiciləri tərəfindən maraqla qarşılanıb.

Bir sosial şəbəkə istifadəçisi "Nüşabə xanıma da türkiyəli yeznə tapılsa, əla olar. İnsan bu qədər təkamül edib" rəyini yazıb.

N.Ələsgərli ona hiddətlə cavab verib: "Nüşabənin yanında aslan kimi əri var. Cənubi azərbaycanlıdır, təbrizlidir".

## Könül Kərimova gileyləndi: "Nəfəsimiz kəsildi"

***Müğənni Könül Kərimova məclislərin birindən həmkarı Cabbar Musayev və digər musiqiçilərə fotosunu paylaşıb.***

"Unikal" sherg.az-a istinadən xəbər verir ki, o paylaşıma bir qeyd də yazıb: "Elə bil ağır döyüşdən çıxmışıq. Allah sizi qorusun". Xatirə İslam isə "Bu işin nə qədər çətin olduğunu bütün toyu canlı ifa edib, aparanlar bilir" kommentini əlavə edib.

K.Kərimova həmkarına "Elədir. Nəfəsimiz kəsildi" cavabını verib.



# "Boşananların çoxu özü sevib evlənənlərdi" - Rəşad İlyasov

***"Şou-biznesimiz "boş qazan"a bənzəyir. Yaxşılar qalır bir kənarda, kimlərsə çıxır ortaya. Yaxşıların da səhvi var ki, meydanı o hədsizlərə buraxır. Məsələn, 2000-ci illərin şou-biznesi, orada olan konsertlər, rəqabət daha yaxşı idi. O gün qulaq şahidi oluram ki, bir-iki toy ifaçısı toydan, maşından, puldan danışır. Qıraqdan dinləyib, gülmək tutdu məni. Bizim zamanda isə hər şey başqa idi. İndi cılızlaşma oldu. İstəmirəm indiki məqamlar sənəti çirkaba bulasın".***



"Unikal" xəbər verir ki, bu sözləri Əməkdar artist Rəşad İlyasov "Üzə-düz" proqramında deyib. Müğənni son vaxtlar boşanmaların sayının artmasından söz açaraq, bundan narazı olduğunu açıqlayıb: "Boşanmada cəmiyyəti günahkar bilmək olmaz. Cəmiyyət deməyib ki, siz boşanın. Həm də fikir verməşəm ki, boşananların çoxu özləri sevib-seçənlər olub. Bölgələrdə daha çox görürük ki, valideyn övladın ailə seçiminə qarışır. Qohum evliliyi bəzi fəsadlara yol açır. Hər mənada fiziki və mənəvi tərəfdən sağlam ailə olmur. İnsanlar çox səbirsiz olublar. Bir az boş buraxıb, təmkinli olmaq lazımdır. Ailədə qadın və kişi bir-birinin sözünü dinləmir. Təbii ki, boşanacaqlar. 6 ay yaşayandan sonra ayrılırlar, axı nişanlı da qalırsan, sən o müddətdə tanımalıydın. Erkən yaşda olan nikahları sevmirəm. O məsələ məni çox narahat edir. Boşanmamaq üçün ilk dönəmlərdə 2-3 il dözmək lazımdır. Çünki hər iki yad nəsil birləşir. Anam da bunu deyirdi həmişə. Gənclər, düşünün, tez ərizə verib boşanmayın!"

Rəşad İlyasov anasının ölümündən sonra onun sözləri ilə təsəlli tapdığını bildirib: "Atam vəfat etməmişdən əvvəl onun xəstəliyini bilirdik, geri dönüş yox idi. Meylimi anama salmışdım, ona dedim ki, sənin itkini çəkə bilmərəm. O, da mənə baxıb dedi ki, boş-boş danışma. Mənim anam rəhmətə gedəndə lap cavan idi. Bax, mən necə dözdüm, sən də elə olacaqsan. Nənəmin 8 uşağı olub, anam müharibə dönəmlərini yaşayıb. Çox çətin günlər görüb. Anam mənə dedi ki, mən siz uşaqlara görə yaşadım, sən də elə olacaqsan, oğlum. Bu bir reallıq idi. Vay o gündən ki, valideyn qala-qala övlad dünyasını dəyişə. Bu, bizim son söhbətlərimizdən biri idi. Anamda ürək ağrısı idi. Evə döndü, qohumlarını gördü, sağollaşdı, dünyasını dəyişdi. Onun sözləri böyük təsəlli oldu".




# Azərbaycanda yeni mərkəz yaradılır

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində "Həyat Ticarət Mərkəzi" Dövlət Müəssisəsi və "Əlillərin Məişət Xidməti Cərgəsi" Dövlət Müəssisəsi birləşir.***

Bu, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin "Vergilər" qəzetində öz əksini tapıb.

Belə ki, birləşmə yolu ilə yenidən təşkil nəticəsində "Sosial Dəstək Mərkəzi" publik hüquqi şəxsi yaradılır.

# Azərbaycan sülhməramlıları Əfqanıstanda qalacaq?- Səfir açıqladı

***Azərbaycanlı sülhməramlıların Əfqanıstanda fəaliyyətini davam etdirməsi ilə bağlı məsələ hələ müzakirə olunmalıdır.***

Bunu Azvision.az -a müsahibəsində Əfqanıstanın Azərbaycandakı səfiri Amanulla Ceyhun bildirib.

"Bu mövzu hələ müzakirə edilməlidir. Çünki NATO qoşunları avqustun sonunadək Əfqanıstandan çıxmalıdır. Hələ bir aya yaxın vaxt var. NATO Əfqanıstanla yenidən anlaşma imzalayacaq və Türkiyə orada qalacaq. Düşünürəm ki, Türkiyə NATO ilə müqavilə imzaladıqdan sonra Azərbaycan qüvvələri istəklərinə uyğun olaraq Əfqanıstanda qala bilərlər", - səfir deyib.

Xatırladaq ki, NATO-nun "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərmək məqsədilə Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstanda sülhməramlı missiyanı yerinə yetirir.

Azərbaycan Ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb. Hazırda Azərbaycan Ordusunun 120 hərbi qulluqçusuƏfqanıstandakı missiyada iştirak edir.

# İran prezidentindən Kəlbəcər sərhədində baş verənlərə reaksiya

***İranın yeni prezidenti İbrahim Rəisi Azərbaycan-Ermənistan sərhədindəki gərginliyə münasibət bildirib.***

"Unikal" Ermənistan KİV-nə istinadən xəbər verir ki, Rəisi bu barədə andiçmə mərasimindən öncə, Ermənistanın baş naziri Nikol Paşinyanı qəbul edən zaman açıqlama verib.

"Bölgədə sülhün qorunması İran üçün böyük önəm kəsb edir və bütün məsələləri danışıqlar yolu ilə həll etmək lazımdır",- deyə Rəisi Ermənistanın Basarkeçər və Azərbaycanın Kəlbəcər rayonunun sərhədində baş verənlərdən söz açıb.

Tərəflər Avrasiya İqtisadi Birliyi ilə İranın Mehri şəhərində yaratmağı planlaşdırdığı azad ticarət zonası barədə müzakirə aparıblar.

Rəisi Paşinyanın Ermənistana səfər etməsi barədə dəvətini qəbul edib.

Xatırladaq ki, Kəlbəcər rayonu istiqamətində Ermənistan tərəfinin törətdiyi təxribatçı addımlar insan itkisinə səbəb olub.

# Mikayıl Cabbarov sahibkarlıq subyektlərindən danışdı

***"Azərbaycanda iqtisaid aktivliyin bərpası sahibkarlıq subyektlərinin artımı ilə müşayiət olunur".***

Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov özünün sosial şəbəkə hesabında yazıb.

"Bu ilin I yarısında ölkədə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 3,9% artaraq 640 401, əlavə dəyər vergisi (ƏDV) ödəyicilərinin sayı 8,9% artaraq 31 738, qeydiyyatdan keçmiş obyektlərin sayı isə 5,8% artaraq 176 794 olub", - o qeyd edib.

# Elman Rüstəmov yanlış yoldan qayıdır, yoxsa...

## Baş bankir, deyəsən, bankların bağlanması ilə problemlərin həll edilməyəcəyinin fərqinə varıb

***Ötən həftə Mərkəzi Bankın (AMB) Baş direktoru Toğrul Əliyev keçirdiyi mətbuat konfransında maraqlı rəqəmlər səsləndirdi. O bildirdi ki, 2021-ci ilin ilk birinci yarısını 22 bank 372 milyon manat xalis mənfəət ilə, 4 bank isə 6,3 milyon manat xalis zərər ilə başa vurub.***

"Xalis zərər 3 bankda əməliyyat xərclərinin əməliyyat gəlirlərini üstələməsi, 1 bankda isə ehtimal olunan kredit zərərləri üçün ehtiyatların yaradılması ilə əlaqədar olub. Zərərlə fəaliyyət göstərən bankların kapitalları üzləşdikləri risklərin absorsiyası üçün yetərlidir və onların maliyyə dayanıqlıqları üçün hər hansı bir təhlükə yaratmır. Bu zərər bank sistemi üçün də təhdid yaratmır" - deyə Baş direktor vurğulayıb.



T.Əliyevin dediklərindən belə anlaşılır ki, bəzi KİV-lərdə müxtəlif vaxtlarda hansısa bankın bağlanacağı barədə yer alan məlumatlar həqiqətlə bir o qədər də örtüşmür. Qısacası, ölkənin baş bankı ən azından yaxın dönəmlərdə hər hansı bankın lisenziyasını ləğv etmək fikrində deyil. Hər halda AMB rəsmisinin zərərlə işləyən bankların maliyyə dayanıqlıqları üçün hər hansı təhlükə olmadığı, eləcə də bu zərərin bank sistemi üçün də təhdid yaratmadığı barədə sözlərindən belə nəticə çıxır.

Fikrimizcə, doğru olan da budur. Və bu, eyni zamanda, ölkənin baş bankiri Elman Rüstəmovun indiyədək sərgilədiyi performansda dəyişiklik etmək niyyətindən xəbər verir. Ekspertlər xeyli zamandır açıq şəkildə bildirirlər: bank sektorunun sağlamlaşdırılması adı altında bankların bağlanması sözügedən sahədəki problemlərdən çıxış yolu deyil. Əksinə, əlavə problemlərin meydana çıxması deməkdir.

Lakin Rüstəmov, görünür, tamamilə fərqli qənaətdə olduğundan elə fərqli qərarlar da qəbul edirdi: zərərlə işləyən bankı ləğv eləmək yolu tuturdu. Gəlin xatırlayaq: təkcə ötən ilin ilk yarısında Mərkəzi Bankın İdarə Heyətinin qəbul etdiyi qərarlarla "Atabank" ASC, "AGBank" ASC, "NBCBank" ASC və "Amrah Bank" ASC ləğv olundu. Nəticədə ortaya iki yeni problem çıxdı. Əvvəla, həmin banklarda çalışanların xeyli hissəsi işini itirdi. Elman Rüstəmovun rəhbərlik etdiyi AMB-nin bu qərarları koronavirus bəlasının bütün ölkələr kimi Azərbaycana da sıçradığı və bu səbəbdən karantin rejiminin elan edildiyi vaxta təsadüf etdiyindən xüsusilə diqqətçəkici idi. Çünki belə çətin günlərdə insanların işini itirməsi ikiqat ağır idi. Elə ona görə də həmin vaxt da yazmışdıq ki, ölkənin baş bankı və onun rəhbəri situasiyanın həssaslığını nəzərə alıb addımlarını da məhz buna görə atmalı idi. Axı hazırkı vaxtda "işsizlər ordusu"nun sıralarını genişləndirmək əvəzinə diqqət bütün sahələrdə, o cümlədən, bank sektorunda problemlərin köklü həllinə yönəlməlidir. Bu zaman elə etmək lazımdır ki, ondan vətəndaş əziyyət çəkməsin.

Bağlanan bankların çox sayda əməkdaşının işsiz qalması ilə bərabər başqa problem də yarandı. Sözügedən banklarda əmanətləri olan minlərlə vətəndaş pullarını geri ala bilməməkdən şikayətlənməyə başladı. Xeyli əmanətçi çıxılmaz vəziyyətə düşdü. Onlar pullarını geri ala bilmədilər, çünki əmanətləri sığortalanmayıbmış. Bu isə onların, eləcə də, ümumilikdə cəmiyyətin Azərbaycanın bank sisteminin etibarlılığını kökündən sarsıdır. "Biz ötən illərdə ölkə banklarında neqativ hallarla bağlı görülən tədbirlərdən, bank sektorunun sağlamlaşdırıldığı barədə rəsmi açıqlamalardan ruhlanaraq, min bir əziyyətlə qazandığımız, dar gün üçün saxladığımız pullarımızı daha güvənlidir deyə banklara etibar etmişdik. Bu gün isə məlum olur ki, yanılmışıq. Halal pullarımızı əmanət etdiyimiz banklar gözlənilməz şəkildə bağlanıb və indi həmin pulları heç cür ala bilmirik"deyən vətəndaşları qınamaq mümkündürmü?

Narazı əmanətçilər haqlı olaraq bildirirdilər ki, bağlanan banklarla bağlı hansısa nöqsanlar olubsa bu həmin bankların və tənzimləyici qurumun - Mərkəzi Bankın problemidir. Bəli, bir qərarla bu bankları bağlamaq asandır. Bunun nəticəsində minlərlə vətəndaşı incitmək, onları çətin vəziyyətdə qoymaq nə qədər doğru, nə qədər ədalətli işdir? Sadə insanların günahı nədir ki, min bir zülmlə qazandığı və banklara əmanət etdiyi pullar kimlərinsə səbatsızlığının, yaritmazlığının qurbanına çevrilir?!

Bəli, mənzərə tamamilə aydındır: Elman Rüstəmovun hansısa bankı qəfil bağlatması bir yandan işsizlər, digər tərəfdən isə əmanətlərini geri ala bilməyən vətəndaşlardan ibarət narazılar ordusu yaradır. Üstəlik, bank sekoruna inam, güvən sarsılır. Nəticə etibarilə itirən vətəndaşla yanaşı, elə bank sektorunun özü olur. Sadə insanlar puldan, bank sektoru inamdan, etibardan məhrum olur.

Məhz bunları nəzərə aldıqda görünən odur ki, ölkənin baş bankı və baş bankiri yanlış yoldan qayıtmaq xətti tutub.

O da ola bilər ki, belə optimist yanaşmamızda yanılırıq. Kim bilir, bir də gördün yenə hansısa bankla bağlı gözlənilməz ləğvetmə qərarı ilə qarşılaşdıq.

Hər halda inanaq ki, bank sektorunun sağlamlaşdırılması adı ilə ən asanına qaçmaq - bank bağlamaq istənilən halda ideal çıxış yolu görünmür...

***Sənan Mirzə***

# Üçtərəfli razılaşmanın pozulmasının pərdəarxası...

## Rusiya üçtərəfli bəyannamənin yerinə yetirilməsində maraqlı olmadığı üçün Ermənistan tərəfi təxribatlarını davam etdirir

***44 günlük müharibədə qalib gələn Azərbaycan tərəfinin haqlı mövqeyi 10 noyabr bəyannaməsində təsdiqlənsə də, Ermənistan tərəfi müxtəlif müstəvilərdə təxribatlar törəməkdə davam edir. Vasitəçi tərəf kimi Rusiyanın razılaşmaya ziddi addımlar atan Ermənistanın təxribatlarına isə lazımi səviyyərə reaksiyası yoxdur. Görünən odur ki, Rusiya üç tərəfli bəyannamənin yerinə yetirilməsində maraqlı deyil.***

MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə "Unikal"a açıqlamasında deyib ki, Rusiya XİN vaxtaşırı Ermənistan və Azərbaycan arasında imzalanan üç tərəfli razılaşmaların yerinə yetirilməsinə çağırışlar edir. Onun sözlərinə görə, 10 noyabr birgə Bəyannaməsindən on ay keçməsinə baxmayaraq, Rusiya konkret addımlar atmır və bu istiqamətdə çalışmaların başlanması üçün Yerevana təsir etmir: "Rusiyanın bu açıqlamaları sadəcə, manipulyasiyadır və məqsəd mövcud situasiyanı qorumaqdan ibarətdir. Ermənistan tərəfindən sərhəddə gərginliyin davam etdirilməsi, mövcud razılaşmaların həllini gecikdirəcək. Burada əsas məqsəd Ermənistan Baş naziri vaxt qazanmaqla Qərbin burada iştirakının təmini və Mink qrupunun fəaliyyətinin bərpası istiqamətində " status" məsələsini müzakirəyə çıxarmağa çalışır. Bu da regional əməkdaşlığa başlanmasının sabotajıdır. Hazırda Rusiya elə bir mövqe sərgiləyir ki, Ermənistana üç tərəfli razılaşmalarla bağlı təzyiq edə bilmir və N. Paşinyan müstəqil hərəkət edir. Halbuki Rusiyanın əlində kifayət qədər təzyiqlər var ki, N. Paşinyan mümkün razılaşmalara getsin.

Qeyd edim ki, müharibədən sonra Azərbaycan, Rusiya və Ermənistan Baş nazirlərinin müavinlərinin birgə iştirakı ilə üçtərəfli komissiya təşkil olunmuşdur. Hətta mart ayında tərəflər konkret təkliflərlə işə başlamalı idilər. Göründüyü kimi birgə komissiyada öz işini dayandırıb. Demek olar ki, Ermənistan mövcud vəziyyəti müharibə vəziyyətinə gətirib çıxarıb. Halbuki 10 noyabr birgə Bəyannaməsi barışığa və əməkdaşlığın əsasını qoyan bir sənəddir".

Politoloq xatırladıb ki, Rusiya və Ermənistan tandemi Türkiyə Azərbaycan tandemi qarşısında döyüşdə məğlub oldu. Onun fikrincə, Ermənistan yeni şərtlərlə masaya qayıtmağa çalışır: "Fikir versək, Ermənistan 10 noyabr və 11 yanvar razılaşmalarını o halda yerinə yetirməyə hazır olduğunu qeyd edir ki, Azərbaycan öz sərhədlərindən ordunu geri çəksin və Qarabağın statusu ilə bağlı danışıqlara başlansın. Artıq, Ermənistanın bu mövqeyi, öz imzasından imtina etməkdir. Əgər, Ermənistan mövcud razılaşmalara getməyəcəkdirsə, N. Paşinyan və Rusiya rəhbərliyi niyə üç tərəfli razılaşmalara imza atırdı?! Hər iki imzalanan razışlamalar əməkdaşlığı və sərhədlərin delimitasiyası-demarkasiyasını nəzərdə tutur. Təbii ki, Azərbaycan Ermənistanın heç bir şərtini qəbul etməyəcək. Baş nazir Nikol Paşinyan özünün imza atdığı sənədə əməl etmək üçün hazırda şərtlər irəli sürürsə, bu onun siyasəti deyil. Bu, Fransanın siyasəti, həmçinin Rusiyanın sabotajıdır. Ele bil ki, N. Paşinyan istintaq altında sənədlərə imza atıb, məhkəmədə öz imzası ilə təsdiq edən izahatını qəbul etmir. Amma, son qərarı məhkəmə verir. Məhkəmədə Azərbaycandı. Qərar çıxarıb N. Paşinyanı şərtlərə əməl etməyə məcbur edəcək.



Maraqlı məqamlardan biri də odur ki, Ermənistan baş naziri Nikol Paşinyan vəzifəsini rəsmiləşdirdikdən sonra ilk xarici səfərini İrana reallaşdırır. Doğrudur, bu özəl səfər deyil, Paşinyan İbrahim Rəisinin andiçmə mərasiminə qatılır. Ancaq Paşinyan İrandakı mərasimə başqa vəzifəli şəxsi də göndərə bilərdi. Paşinyan İbrahim Rəisinin andiçmə mərasiminə şəxsən qatılmaqla bu ölkə ilə münasibətlərə verdiyi əhəmiyyəti ortaya qoyub. Nikol Paşinyan sonuncu dəfə İranda rəsmi səfərdə 2019-cu ilin fevralında olmuşdu. Bu, Paşinyanın baş nazir vəzifəsində İrana ilk rəsmi səfəri idi. Paşinyan həmin səfərə hakimiyyətə gəldiyi ilk gündən hazırlaşırdı. Səfərdən əvvəl İranın Ermənistandakı səfirliyinin ticarət müşaviri bildirmişdi ki, 1991-ci ildən, yəni Ermənistanın müstəqilliyini qazandığı ildən bəri iki ölkə arasında ticarət mübadiləsində ən yüksək göstərici məhz Paşinyanın ilk hakimiyyət dövründə qeydə alınmışdı. Söhbət 364 milyon dollarlıq ticarət mübadiəsindən gedirdi. Əslində rəqəm böyük deyildi, ancaq faktın özü maraqlıydı ki, bu, iki ölkə arasındakı əməkdaşlıqda ən yüksək göstərici sayılır. Təsadüfi deyil ki, Nikol Paşinyan 2018-ci ildə baş nazir kürsüsündə xarici siyasətlə bağlı ilk geniş nitqində İranın adını Rusiyadan çox çəkmişdi.

Bu barədə fikirlərini bildirən politoloq Elxan Şahiboğlu deyib ki, Nikol Paşinyan İranla iqtisadi əməkdaşlığı genişləndirmək və birgə regional layihələri reallaşdırmağı arzulayırdı. Alınmadı, verilən vədlər həyata vəsiqə qazanmadı. Onun sözlərinə görə, Paşinyanın İrana həmin səfəri qalmaqalla yadda qaldı. Paşinyan Tehranda "Ararat" idman-sağlamlıq mərkəzində erməni icmasının nümayəndələri ilə görüşərək arxa planda "Dağlıq Qarabağ Respublikasının bayrağı" və "Qarabağ Ermənistanındır" şüarı asılmış selfisini yaydı: "Rəsmi Bakı Tehranda bu toplantıya aydınlıq gətirməsini tələb etdi. Çünki həmin zalda açıq-aşkar Azərbaycana və İran-Azərbaycan əməkdaşlığına qarşı təxribat həyata keçirilmişdi. İrandan qeyri-rəsmi kanallarla xəbər yayıldı ki, "Qarabağ Ermənistandır" şüarını zalda qaldıran şəxslər saxlanılıb və onlar sorğu-sual ediliblər. Bunu yoxlamaq çətin olsa da, hər halda Tehranda anladılar ki, İran ermənilərinin Paşinyanın selfisi ilə birgə həyata keçirdiyi təxribat İranın özünün əleyhinə işlədi.

Nikol Paşinyan Tehrandakı çıxışında bunları demişdi: "Mən Dağlıq Qarabağın əvəzinə danışa bilmərəm, Bakı birbaşa Qarabağ erməniləri ilə danışıqlar aparmalıdır. İlham Əliyevlə danışıqlardan nəticə yoxdur. Vasitəçilər mənə "hansı güzəştlərə hazırsınız" sualını ünvanlayanda onlardan soruşuram ki, Azərbaycan hansı güzəştlərə hazırdır? Biz o zaman bu suala cavab verəcəyik ki, birinci bu suala Azərbaycan cavab versin. Kimsə düşünürsə ki, Qarabağ problemini güc yolu ilə həll etmək olar, kökündən yanılır. Bunu deyən anlamalıdır ki, qarşısında təkcə Etmənistanı yox, bütün dünya ermənilərini görəcək".

Bu açıqlamadan təxminən il yarım sonra Azərbaycan müharibədə qələbə çaldı və Nikol Paşinyanın Tehrandakı çıxışının mənasız olduğu aydınlaşdı.

Nikol Paşinyan bu dəfə Tehranda geniş nitq söyləməyəcək, andiçmədə iştirak edib və İran rəsmiləri ilə görüşüb geri qayıdacaq. Paşinyanla görüşəcək İbrahim Rəisi praqmatik siyasətçidirsə Qarabağ məsələsinin Azərbaycanın xeyrinə bitdiyini anlamalı, ermənilərin İran üzərindən təxribatlarının qarşısını almalı və yeni xarici işlər nazirinə tapşırmalıdır ki, İranın Ermənistandakı səfiri qeyri-diplomatik hərəkətlər etməsin".

***Z.Məmmədli***



## Nazir bu təhsil şöbəsinə yeni müdir təyin etdi

***Goranboy Rayon Təhsil Şöbəsinə yeni müdir təyin olunub.***

Unikal.org xəbər verir ki, Goranboy rayon Aşağı Ballıqaya kənd ümumi orta məktəbinin direktoru Nazarov Seymur Fazil oğlu bu gün Goranboy Rayon Təhsil Şöbəsinin müdiri vəzifəsinə təyin edilib.

## "Donbas işğaldan azad ediləcək!" - Zelenski

***Ukrayna prezidenti Vladimir Zelenski Donbasın heç vaxt Rusiya ərazisi olmayacağını və işğaldan azad olacağını bildirib.***

Unikal.org xəbər verir ki, o, bu barədə "Dom TV"-yə verdiyi müsahibədə qeyd edib. Donbasın heç vaxt rus torpağı olmayacağını vurğulayan Zelenski, orada yaşayan insanlara səslənərək bu sözləri deyib: "Əgər Rusiyanı sevirsinizsə və ömrü boyu yaşadığınız Ukrayna torpağını Rusiya hesab edirsinizsə, uşaqlarınız və nəvələriniz üçün Rusiyaya gedib, yer axtarmalısınız".

Bununla yanaşı, Ukraynasız Donbasda bir mədəniyyət olmayacağını ifadə edən Zelenski: "Donbasın Ukrayna torpağı olduğunu bilirsinizsə, Ukrayna bayrağına və dilinə hörmət edin və gözləyin! Donbas işğaldan azad olacaq!",- deyə ifadə edib.

Ukrayna rəhbəri son olaraq, "Almaniyadakı divarın dağıldığı kimi Donbas da azad ediləcək" şərhi ilə sözünü bitirib.

***Gülayə Mecid***

## Ermənistanın yeni müdafiə naziri Rüstəm Muradovla görüşdü

***Ermənistanın yeni təyin edilmiş müdafiə naziri Arşak Karapertyan Rusiya sülhməramlılarının komandanı Rüstəm Muradovla görüşüb.***

Unikal.org xəbər verir ki, görüş avqust ayının 5-də keçirilib.

Görüş zamanı sülhməramlı missiyanın fəaliyyəti, həmçinin Azərbaycan-Ermənistan sərhədindəki vəziyyət müzakirə olunub.

***Ağarza Elçinoğlu***

# İlham Əliyev və Emmanuel Makron razılığa gəldi



***Fransa Prezidenti Emmanuel Makron və Azərbaycan Prezidenti İlham Əliyev regional sabitliyə nail olmaq naminə əməkdaşlıq barədə razılığa gəliblər.***

Unikal.org ”TASS”a istinadən xəbər verir ki, bu barədə Yelisey sarayının liderlərin telefon danışığı barədə açıqlamasında qeyd olunub.

”Azərbaycan Prezidenti İlham Əliyev və Fransa Prezidenti Emmanuel Makron regionda sabitliyin möhkəmlənməsi məqsədilə əməkdaşlıq barədə razılığa gəliblər”, - deyə məlumatda qeyd olunub.

# İranın yeni prezidenti and içdi

***İslam Şurası Məclisi (parlament) binasında İranın yeni prezidenti İbrahim Rəisinin andiçmə mərasimi başlayıb.***



Unikal.org xəbər verir ki, dövlət televiziyası ”İRİB” tərəfindən birbaşa yayımlanan mərasimdə parlament və Ali Məhkəmə rəhbərləri, yüksək rütbəli rəsmilər və hərbçilər iştirak edirlər. Bununla yanaşı, 70-dən artıq ölkədən 115-dək qonaq da mərasimdə iştirak edirlər.

Xatırladaq ki, İbrahim Rəisi iyulun 18-də keçirilən və seçicilərin 48,8 faizinin iştirak etdiyi seçkilərdə 17,9 milyon (62 faizə yaxın) səs toplayaraq yeni dövlət başçısı seçilib.

# “Şənbə-bazar ictimai nəqliyyatın işləməmsi pandemiyanı azaltmır, əksinə” - DEPUTAT

***“Qarşıdan növbəti şənbə və bazar günü gəlir. Bir çox insanımız üçün bu işgəncə və azar günləridir. Operativ Qərargah hələ də inadından dönmək istəmir”.***

Bunu Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü, deputat Fazil Mustafa bildirib. O, qeyd edib ki, ictimai nəqliyyatın işləməməsi insanları çətin vəziyyətə salır: “Yenə də metronu, avtobusları işləməyə qoymayacaqlar, zavallı insanlar düşəcəklər taksi axtarışına. Pulu-parası olmayan da otursun evində, bütün vacib işlərini təxirə salsın. İnsanlarımız həm maddi, həm də mənəvi sıxıntını yaşayacaqlar. Onsuz da yay vaxtı insanların bir qismi məzuniyyətdə, iş yerlərinə də elə bir axın yox”.

Fazil Mustafa qeyd edib ki, heç kim də əsaslandıra bilmir ki, iki gün ictimai nəqliyyat işləməyəndə pandemiya azala bilər: “Əksinə, nəqliyyatda sıxlıq yaratmaqla insanlar üçün yoluxma risqini daha da artırırlar. Metronun girişində qızdırmanı yoxlamaq üçün aparat qoyulur və bu da profilaktika üçün kifayət edir. İctimai nəqliyyat həftənin bütün günləri işləməlidir, əminəm ki, özü metro ilə, avtobusla gedib-gəlmək məcburiyyətində olan kimsə belə bir qərarı qəbul etməz. Məsələyə öz komfortundan yanaşanlar anlamalıdırlar ki, bu qərarla eyni vaxtda şəhərətrafından gələn vətəndaş, xəstəxanaya metro ilə tələsən tibb bacısı, maaşı aşağı olan avtobus sürücüsü, televiziyaya, redaksiyaya tələsən jurnalist, yaxud da bir pensiyaçı, bir əlill boğazından kəsdiyi pulu taksiçiyə verməyə məhkum olur. Fikrimcə təcili olaraq bu qərara baxılmalı, Bakı şəhərində bütün ictimai nəqliyyatın işləməsi təmin edilməlidir”.

Baş redaktor:
Zaur Əhməd

“Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# İlham Əliyevdən 1,1 milyon manatlıq sərəncam

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də “Şabran rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (6 km)-Padar avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb.***

“Unikal” xəbər verir ki, Sərəncama əsasən, Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (6 km)-Padar avtomobil yolunun tikintisi məqsədilə “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 1,1 milyon (bir milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

# Rusiya sərhəddəki hadisələrə görə narahatdır

***Rusiya tərəfi Ermənistanla Azərbaycan sərhədində silahlı insidentlərin artmasından narahatdır.***




Bunu Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamentinin direktor müavini Aleksandr Bikantov deyib.

”Rusiya son vaxtlar Ermənistan-Azərbaycan sərhədinin müəyyən hissələrində baş verən silahlı insidentlərin artmasından ciddi narahatlıq keçirir. Hər iki tərəfdən insan itkisi ilə müşayiət olunması xüsusilə narahatlıq doğurur. Təəssüf ki, atılan bütün addımlara baxmayaraq, sərhəddə gərginlik hələ də səngiməyib”, - deyə Bikantov bildirib.

Qeyd edək ki, Ermənistan silahlı qüvvələri son həftələrdə Kəlbəcər və Naxçıvan istiqamətində təxribatlar törətməyə davam edir.

# Müəllimlərin işə qəbulu üzrə test imtahanı mərhələsi başa çatıb

***İyulun 5-dən start verilən ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanı mərhələsi yekunlaşıb.***

Təhsil Nazirliyindən “Unikal”a verilən məlumata görə, bu mərhələdə 19 fənn - Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan dili, ibtidai sinif, ingilis dili, alman dili, riyaziyyat, informatika, təsviri incəsənət, rus dili, rus dili və ədəbiyyatı, fransız dili, musiqi, tarix, kimya, fizika, texnologiya, biologiya, fiziki tərbiyə və coğrafiya üzrə test imtahanları keçirilib.

Ümumilikdə 21 iş gününü əhatə edən və ölkə üzrə 12 imtahan mərkəzində həyata keçirilən imtahanlarda 46 930 namizəd iştirak edib.



# Jurnalistlər üçün keçirilən təlim başa çatdı

***Bugün Azərbaycan Respublikasının Medianın İnkişaf Agentliyi, ADA Universiteti, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Beynəlxalq Avrasiya Mətbuat Fondunun birgə təşkilatçılığı ilə 1-5 avqust tarixlərində keçirilən “Jurnalistlərin münaqişə ərazilərində davranışları: Təhlükəsizlik və mühafizə qaydaları” mövzusunda təlim proqramı başa çatıb.***

MEDİA-dan “Unikal”a verilən məlumata görə, bağlanış mərasimində çıxış edən Medianın İnkişaf Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov təlimlərin hazırki şəraitdə böyük praktik əhəmiyyət daşıdığını bildirib. O, bundan sonra da bu məzmunda keçiriləcək təlimlərə Medianın İnkişafı Agentliyinin dəstək verəcəyini vurğulayıb.

Qeyd edək ki, proqram çərçivəsində “Əl-Cəzirə” Media Şəbəkəsinin heyəti tərəfindən Azərbaycan Media



nümayəndələri üçün “Jurnalistlər üçün Risk Təhlili və Əməliyyat Planlaşdırılması”, “Xəbər toplamaqda riskin qiymətləndirilməsi”, “Ballistik təhlükə”, Şəxsi təhlükəsizlik”, “Zərərçəkənlərin qiymətləndirilməsi”, “Nümayiş və İctimai Qarışıqlıq”, “Minalar və əldə hazırlanmış partlayıcı qurğular haqqında məlumat”, “Yara və qanaxmanın idarə olunması”, “Səyahət Təhlükəsizliyi”, “Hava Hücumu və dron haqqında məlumat”, “Bədəndə yaranmış qırıq hallarının idarə olunması”, “Yanğının idarə olunması”, “Qaçırılma və Xüsusi risklər”, “Praktiki və Təlim Reviziyası”, “Planlaşdırma və Risk qiymətləndirmə Testi”, “Yekun Praktiki Ssenari test” mövzularında təlimlər keçirilib. Təlim zamanı real praktik misallardan istifadə edilməklə, iştirakçılara müvafiq mövzularla bağlı məlumatlar verilib.

Təlim proqramının sonunda müxtəlif media subyektlərindən olan 19 nümayəndəyə sertifikatlar təqdim edilib.

***Hüseyn***

# Vətən müharibəsi qazisinə vəzifə verildi

***ARB telekanalında yeni təyinat olub.***

II Qarabağ müharibəsi zamanı qazi olan Mail Əskərov, çalışdığı “ARB Media Qrup”un Mətbuat katibi təyin olunub.

Qeyd edək ki, Mail Əskərovdan əvvəl “ARB Media Qrup”un mətbuat katibi Ozal İbrahimli idi.

# Nazirlikdən toylara nəzarətlə bağlı - Açıqlama

***Şənlik məkanlarında tədbirlərin müəyyən edilmiş qayda və tələblərə uyğun təşkilinə nəzarət məqsədilə gündəlik monitorinqlər davam etdirilir.***

Belə tədbirlərin başlanmasına icazə verildiyi tarixdən bu günədək Daxili İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri tərəfindən 1300-dən çox obyektdə monitorinq aparılıb. Əksər şadlıq evlərində karantin qayda və tələblərinə əməl olunması, xidmət personalı və qonaqlar arasında peyvənd və ya immunitet barədə müvafiq sənədlərə malik olanların sayının əvvəlki dövrlərlə müqayisədə əhəmiyyətli dərəcədə artması müsbət hal kimi qiymətləndirilə bilər. Maarifləndirmə tədbirlərinə başlandığı vaxtdan ötən dövr ərzində xidmət persolanının vaksinləşmə göstəricisi 2 dəfəyədək yüksəlib.



Bununla belə, monitorinqlər zamanı şənlik mərasimlərinin təşkil olunduğu bəzi obyektlərdə qayda pozuntusu hallarına da rast gəlinir. Bunlar, əsasən, məkan sahiblərinin şənlik mərasimlərini icaze.e-gov.az portalında qeydə alınmadan təşkil etməsi, zalların ölçüsü imkan vermədəyi halda, daha çox qonaq üçün sifariş qəbul edilməsi, toylarda qonaqların say və stollar arasında məsafə məhdudiyyətinin pozulmasıdır.

İndiyədək monitorinq aparılan tədbirlərdə iştirak edən 217 minə yaxın qonağın müvafiq sənədlərinə baxılıb, 22,3 minə yaxın şəxsin sənədlərində nöqsanlar aşkar edilib.

Novbəti monitorinqlər zamanı məkan və toy sahibləri ilə izahat işləri aparıldıqdan sonra həll edilə bilən pozuntu halları aradan qaldırılıb, tədbirlərin qaydalara uyğun həyata keçirilməsi təmin olunub. Nümunəvi toy mərasimlərinin təşkil olunduğu məkanlarda yeni evlənənlərə hədiyyələr təqdim edilib.

Bir daha bildiririk ki, tədbirlərin təşkili zamanı vətəndaşlar tərəfindən karantin rejiminin qayda və tələblərinə ciddi əməl edilməli, xidmət personalının vaksinləşməsinə xüsusi diqqət yetirilməlidir. Bu, hamımızın sağlamlığının qorunması üçün vacib şərtdir.

# Meşə yanğınları ilə bağlı vətəndaşlara çağırış

***Ağsunun Gəgəli kəndinin yüksək dağlıq ərazisində başlayan yanğının meşə ərazisinə keçməsinin qarşısının alınması istiqamətində təxirəsalınmaz tədbirlər görülür.***

"Unikal" xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova bildirib.

O qeyd edib ki, hazırda əməkdaşlarımız da hadisə yerindədir və Fövqəlada Hallar Nazirliyinin və yerli kənd camaatının köməyi ilə yanğının tez bir zamanda söndürülməsi və meşəyə keçməməsi üçün çalışırlar.

İ.İbrahimova bir daha vətəndaşlara müraciət edərək bildirib ki, havaların isti və quraq keçməsini nəzərə alaraq təbiətdə olarkən odla ehtiyatlı olsunlar, yanğın təhlükəsizliyi qaydalarına əməl etsinlər.

"Tam səmimi deyirəm, yanğın məsələsindən o qədər narahatıq və bu mövzuya o qədər həssasıq ki, hardasa yanğın baş verdikdə bu xəbəri ürək ağrısı ilə qəbul edirik və istəyirik ki, bu narahatlıq, bu həyəcan bütün vətəndaşlarımızda da olsun. Yay mövsümündə təbiət ərazilərində, meşələrdə yanğınların baş verməsi təəssüf ki, bir reallıqdır və qaçılmazdır. Lakin hamımız bir nəfər



kimi bu həyəcanı, bu narahatlığı hiss edib, davranışlarımızı maksimum dərəcədə ehtiyatlı qursaq, yarana biləcək belə fəlakətlərdən qurtularıq".

# "Sahibkarların kredit resurslarına çıxış imkanları məhduddur" - Deputat

***İqtisadiyyatın liberal mahiyyəti tarixən formalaşmış klassik yanaşmaların ən maraqlı istiqamətlərindən biri hesab olunur.***

Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin əsas prioritetlərindən biri də əlverişli biznes mühiti yaratmaqla daxili və xarici investisiyaların cəlb edilməsi və qeyri-neft sektorunun güclü inkişafına nail olunmasıdır.

Milli Məclisin İqtisadi-siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov Bakıvaxtı.az-a bildirib ki, azad sahibkarlıq və liberal iqtisadiyyatın formalaşması, eyni zamanda bu gün həyata keçirilən iqtisadi-siyasətin əsas hədəflərindən biridir: "Ölkə prezidenti tərəfindən təsdiq olunmuş 2030 sosial-iqtisadi inkişafa dair milli prioritetlərdə də gizli iqtisadiyyatın məhdudlaşdırılması, eyni zamanda liberal iqtisadiyyatın genişləndirilməsi vacib prioritetlərdən biridir. Bu baxımdan, dünya bankının "Doing Bussines" hesabatı həm də azad iqtisadiyyatın və eləcə də iqtisadiyyatın liberallaşması baxımından konsepsiya rolu oynaya



bilər. Hesabatın fəlsəfəsi ondan ibarətdir ki, prosedurların, eləcə də tələb olunan zamanın sayı azalsın".

Deputat qeyd edib ki, artıq bu iqtiamətdə Azərbaycan ciddi islahatlar aparıb: "Xüsusilə "Doing Bussines"də yerimizin möhkəmlənməsi də bundan xəbər verir. Amma "Doing Bussines"də nisbətən geri qaldığımız istiqamətlər üzrə islahatların dərinləşməsi və azad sahibkarlığın məhz bu kontekstdən dəstəklənməsi məqsədəuyğun olardı. Eləcə də bizim apardığımız monitorinqlər onu göstərir ki, bu gün əsas çətinliklərdən biri, sahibkarların kredit resurslarına çıxış imkanlarının məhdud olmasıdır. Eyni zamanda kredit strukturunun balansında uyğunsuzluğun müşahidə olunması da çatışmazlıqlardan biridir. Belə ki, ölkə üzrə kredit portfelinin 80%-i Bakının, qalan 20%-i isə regionların payına düşür. Bu da onu göstərir ki, azad sahibkarların girovlar səbəbindən kredit resurlarına çıxış imkanları məhduddur. Girov mexanizminin təkmilləşdirilməsi və kredit faizlərinin əlçatan olması vacibdir ki, azad sahibkarlar həmin kreditlərdən istifadə edib sahibkarlığın inkişafını genişləndirə bilsin. İqtisadiyyatın liberallaşdırılması çox önəmlidir və bu kontekstdən məşğulluğun dəstəklənməsinə və məşğulluq haqqında qanunun qəbul edilməsinə ehtiyac var. Bu məsələ də yaxın zamanlarda öz həllini tapacaq".

AQTA — AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

# Agentlik bu qurumları cərimələdi

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) nəzarət tədbirləri çərçivəsində ötən gün ölkə üzrə 417 ictimai iaşə obyektində 710 monitorinq keçirib.***

AQTA-dan "Unikal"a verilən məlumata görə, monitorinqlər zamanı 13 müəssisədə qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması faktları aşkar olunub.

Aşkar edilmiş nöqsanlarla bağlı İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq müvafiq tədbirlər görülüb. Pozuntular aşkar edilmiş ictimai iaşə müəssisələri aşağıdakılardır:

1. Bakı şəhəri, Nəsimi rayonu, Kiçik Qala 66 ünvanında yerləşən, hüquqi şəxs "Bürc" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus "Bürc Qala" restoranı;
2. Bakı şəhəri, Sabunçu rayonu, Ruhulla Axundov 2 ünvanında yerləşən, fiziki şəxs Qəhrəmanova Samirə Bəxtiyar qızına məxsus kafe;
3. Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən, fiziki şəxs Seyidli Xəyyam Məmmədəli oğluna məxsus "Şaurma" kafesi;
4. Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh qəs., Mərdəkan dairəsində yerləşən, fiziki şəxs Xuduyev Nicat Etibar oğluna məxsus kafe;
5. Bakı şəhəri, Nəsimi yrayonu, D.Əliyeva 251 ünvanında yerləşən, fiziki şəxs Məmmədov İlqar Sərvər oğluna məxsus kafe;
6. Bakı şəhəri, Nəsimi yrayonu, Nizami 73 ünvanında yerləşən, fiziki şəxs Novzruzov Zaur Gülqardaş oğluna məxsus kafe;
7. Bakı şəhəri, Nəsimi yrayonu, Rza 16 ünvanında yerləşən, fiziki şəxs Mehdiyeva Çinarə Aydın qızına məxsus kafe;
8. Bakı şəhəri, Nərimanov yrayonu, Xoyski 113 ünvanında yerləşən, fiziki şəxs Əliyev Azin Arif oğluna məxsus "Narzan" kafesi;
9. Bakı şəhəri, Nərimanov yrayonu, Xoyski 113 ünvanında yerləşən, fiziki şəxs Quliyev Coşqun Elşən oğluna məxsus kafe;
10. Bakı şəhər,Yasamal rayonu, Naxçıvani 1 ünvanında yerləşən, hüquqi şəxs "GFC" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus "KFC" restoranı;
11. Göyçay rayonu, Şirvanməcid küçəsində yerləşən, fiziki şəxs Veysəlov Emil Vahid oğluna məxsus kafe;
12. Gəncə şəhəri, Nərimanov 33, m 3 ünvanında yerləşən, fiziki şəxs Xoyluyev Mustafa Rantiq oğluna məxsus "Mustafa" kafesi;
13. Gədəbəy rayonu, Novosaratovka kəndində yerləşən, fiziki şəxs Əliyeva Samirə Rizvan qızına məxsus kafe.

Qeyd edək ki, AQTA tərəfindən Bakıda, eləcə də regionlarda fəaliyyət göstərən ictimai iaşə obyektlərində monitorinqlərin miqyası genişləndirilib. Hazırda AQTA müfəttişləri tərəfindən respublika üzrə monitorinqlər davam etdirilir və qaydalara əməl etməyən sahibkarlıq subyektləri barədə ən sərt tədbirlər görüləcək.

# "Hamı bilməlidir ki, heç kim toxunulmaz deyil"

## Tural Abbaslı: "Söhbət dövlətin dayaqlarından gedirsə, kimsəyə güzəşt edilməməlidir, ən sərt cəzalar verilməlidir"

***Bir müddət öncə hakimiyyətlə müxalifət arasında dialoq mühitinin yaradılması istiqamətində müəyyən addımlar atılsa da ortada konkret nəticələr yoxdur. Belə ki, hansısa siyasi islahatların aparılması üçün geniş tərkibli görüşlərin şahidi olmuruq. Lakin milli və dövlət əhəmiyyətli məsələlərdə siyasi qüvvələrin əksəriyyəti vahid mövqedən çıxış edə bilirlər. "Unikal" qəzetinə müsahibə verən Ağ Partiyanın sədri Tural Abbaslı ilə söhbətə də elə bu məsələdən başladıq.***

***-Tural bəy, bir müddət əvvəl başlayan iqtidarla müxalifət arasındakı dialoq prosesi nə yerdədir?***

-Öncə onu deyim ki, qarşılıqlı dialoq və ya yeni ölkədaxili siyasi düzənin formalaşdırılması prosesi, birdəfəlik baş tutan proses deyil, bu, davamlı olmalıdır. Burada iqtidarla müxalifətin birgə fəaliyyətinin ənənəsi qoyulmalıdır. Təəssüf ki, bizdə iqtidar-müxalifət dialoqu deyiləndə zaman-zaman özlərinin etdiyi kimi separat danışıqları nəzərdə tuturlar. Söhbət bundan, ya da xalqın maraqlarına zidd razılaşmalardan getmir. Söhbət iqtidar və müxalifətin dövlət, Vətən naminə birgə fəaliyyətindən gedir. Yəni iqtidar da, müxalifət də öz işini görür. Həmin dialoq prosesi bir qədər öncə başlayıb. Təbii ki, əvvəlki ilə müqayisədə xeyli irəliləyiş var. Ən azından biz çıxışlarımıza görə təqib və ya həbs edilmirik. Mediaya qoyulan qadağalarda, siyasi fəaliyyətdə və s. irəliləyişlər var. Amma biz bu mərhələdən də irəli getməliyik. Düşünürəm ki, hələ biz yolun yarısındayıq. Ən azından digər dövlətlərdə olan normal orta-statistik iqtidar-müxalifət münasibəti sistemi formalaşana qədər davam etməliyik. Bu proses davamlı, ayrıntılı və prinsipal olmalıdır. Hər yöndə istər müxalifət, istərsə də iqtidar öz üzərinə düşəni yerinə yetirməlidir. Təbii ki, bu prosesdə iqtidarın üzərinə daha çox məsuliyyət düşür. Çünki iqtidardadırlar, onların imkanları daha çoxdur, nəinki müxalifətin.

***-Sizin sözügedən dialoqa getməyiniz bir çox müxalifət nümayəndələrini narazı saldı. Hətta onlar bunu yanlış addım kimi qəbul edərək Sizi ittiham edənlər də var...***

-Bu, doğru addım idi. İqtidarla müxalifət partiyalarının bir masa arxasında oturub mövcud problemləri normal şəkildə müzakirə etməsində qeyri-adi nə ola bilər? Əksinə, anormallıq odur ki, bir dövlətin hakimiyyəti və müxalifətini bir araya gətirmək üçün ATƏT təşəbbüs göstərir. Və deyilirdi ki, ATƏT-in təşəbbüsü ilə Azərbaycanda iqtidar-müxalifət dialoqu olmalıdır. Bu, 1918-ci ildə demokratiyanın təməlini atan bir ölkə üçün utancverici bir addım idi. Yəni, beynəlxalq təşkilatlar müxtəlif terror təşkilatları ilə dövlətləri, qruplaşmaları, düşmən qəbilələri də danışığa gətirsin, özünə sivil, demokratik ölkə deyən Azərbaycanda da müxalifətlə iqtidarı ATƏT və ya digər beynəlxalq qurumlar görüşdürsün. Bu, doğru deyildi. Niyə öz iqtidarımız, iqtidar da müxalifətlə ünsiyyətə keçməsin? Bunun bariz nümunəsi Türkiyədə var. Hətta onlar bir-birlərinə qarşı ən kəskin ifadələrdən istifadə edirlər. Məsələ dövlət, Vətənə gəlincə isə birləşirlər. Yəni, belə nümunələr varsa, biz nəyə əsaslanıb deyirik ki, biz iqtidarla bir masada oturmarıq. Bu nə təfəkkürdü?

Yaxşı, biz problemləri bir masa arxasında müzakirə etməyəcəyiksə bəs harda edəcəyik? Birbirimizə meydanda daş ataraq, yoxsa həbs, ya da daş-qalaq etməklə? Ona görə də təbii ki, bu doğru addımdır.

Bu prosesin əleyhinə olanlar isə özlərinin diqtə etdiyi şərtlərlə iştirak edə bilmədikləri üçün prosesi gözdən salırlar. Həmin qüvvələr dünənə qədər belə proseslərdə ancaq öz maraqlarının təmini üçün çıxış edirdilər. Həmin maraqlar da bir çox vaxtlarda xalqın maraqları ilə üst-üstə düşmürdü. Bunu kimsə bəyənmirsə bu, onların problemidir.

***-Azərbaycanda cəmiyyətin siyasi proseslərdən kənarlaşması tendensiyası müşahidə olunur. Necə düşünürsünüz, Sizin hakimiyyətlə dialoqa getməyinizdən xalqın xəbəri varmı? Ümumiyyətlə, müxalifət-iqtidar dialoqunun xalqa nə xeyri var?***

- Adi vətəndaşın nazirə, nazir müavininə və ya hansısa dövlət strukturu ilə əlaqə qurması, şikayətlərini bildirməsi imkanı yoxdur. Nəinki mərkəzi hakimiyyət, həmçinin yerli orqanlara da öz sözlərini çatdırıb haqlarını tələb edə bilmirlər. Təəssüflə qeyd edirəm ki, son 25 ildə müxalifət siyasi proseslərdən sıxışdırılaraq çıxarılıb. Son dönəmlərdə müxalifətlə iqtidar arasında dialoqun olması, vətəndaşların birbaşa olaraq müxalifətin təsir imkanları ilə şikayətlərinin baxılmasına səbəb olur. Bu gün bizə çox sayda şikayətlər daxil olur. Biz də onları ümumiləşdirərək iqtidara öz etirazımızla çatdırırıq. Deyə bilmərəm ki, həmin problemlərin hər biri həll olunur. Amma biz o məsələlərin 20 faizinin həll edilməsinə belə nail oluruqsa bu, xalqın qazancıdır. Dünənə qədər vətəndaş iqtidardan-iqtidara şikayət edirdi. Amma bu gün onlar iqtidardan onun düşməninə yox, məhz rəqibinə şikayət edir. İqtidar da həmin şikayətlərdən öz opponentinin siyasi dividentini artırmasına imkan verməmək üçün həmin problemi həll edir. Nəticədə isə xalq qazanır. Məhz xalqın naminə bu proses davam etdirilməlidir.

***-Tural bəy, son günlərin əsas müzakirə mövzusu polisi döyən deputat Eldəniz Səlimovdur. Məsələ ictimailəşdi, deputat toxunulmazlığı götürüldü, həbs olundu. Bu barədə nə deyə bilərsiniz?***

-Eldəniz Səlimovun hərəkəti yolverilməz addım idi. Bu, bir daha iqtidarın,YAP-ın kadr seçkisi zamanı nə qədər diqqətli olmalarına bir işarə idi. Bu, kadr seçimi zamanı onların müəyyən etdiyi kriteriyalarda dəyişiklik etməli olduqlarının göstəricisi idi. Məsələn, mən Eldəniz Səlimov adlı deputatın olmasından xəbərsiz idim. Çox güman ki, xalqın əksəri tanımırdı onu. Amma biz bu neqativ vəziyyətdə onu tanıdıq. Sonra mən onun siyasi kariyera tarixi ilə maraqlandım. Məlum oldu ki, E.Səlimov siyasətə təsadüfən gəlmiş adamdır. Əvvəlcə Xaçmaz rayonunun vergilər idarəsində, oradan da keçib bankda kargüzarlıq işi ilə məşğul olub. İndi də kiminləsə tanışlığı sayəsində, ya da hansısa nəslin "nizə atanıdır" deyə bunu YAP-a, oradan da dövlətin ali qanunverici orqanı olan Milli Məclisə deputat seçtiriblər . Bu kimi adamları geyindirib harada otuzdursan da, bahalı əşyalarla təmin etsələr də yenə mahiyyətləri siyasətdən kənar məhlə uşağı kimidir. Bu da özünü göstərdi. Məncə burada əsas dərsi Yeni Azərbaycan Partiyası və iqtidar götürməlidir ki, artıq təsadüfi insanların siyasətə gəlməsinin qarşısı alınmalıdır.

Bu gün YAP-dan parlamentə gələn deputatlar var ki, jurnalistin sualını cavablayarkən "mən siyasətə qarışmıram" deyir. Bəziləri də deyir ki, "öyrənirik də yavaş-yavaş". Adam qanunverici orqanın üzvüdür, bizim yaşamımızı təmin edəcək qanunları qəbul edən adam hələ siyasət öyrənir. Yəni bunlar "dəlləkliyi" xalqın başında öyrənir misalının bariz nümunəsidir.

Görünən odur ki, burada kriteriyalar qohumbazlıq, tanışlıq və s. aiddir, nəinki bilik, bacarıq, qabiliyyətg Ona görə də uğursuz kadrlar dövlətə gəlir. Yəni, dünənə qədər ən yaxşı vəzifəsi restoranda administrator olan kiminsə qohumudur deyə parlamentə gətirilir, ya da kiminsə oğludur deyə vəzifə verirlər. Bu gün qohumluq və ailə maraqları üstün tutulduğuna görə iqtidar sözügedən problemləri yaşayır.

Bu gün adıçəkilən deputata göstərilən münasibətə gəlincə, təqdir olunası haldır. Hamı bilməlidir ki, heç kim toxunulmaz deyil. Hər kəs qanun qarşısında cavab verməlidir. Hələ söhbət qanun keşiyində duran bir orqana qanunverici orqanın nümayəndəsinin "təpik atması"ndan gedirsə bu, biabırçılıqdır. Mən ona qarşı atılan addımı alqışladım. Amma bəlkə də müəyyən yumşalmalarla həbsə atılmamaq olardı, lakin burada dövlət simvolları var. Bu, dövlətin dayaqlarını və nüfuzunu sarsıdırdı. Ona görə də düşünürəm ki, adekvat tədbir görüldü. Hakimlərimiz də məhkəmə də doğru qərar verərək hamıya görk olacaq qərar qəbul etdilər. Söhbət dövlətin dayaqlarından gedirsə, kimsəyə güzəşt edilməməlidir, ən sərt cazalar verilməlidir.



***- Adətən vəzifəli şəxslər qanun pozuntusuna yol verəndə onların cəzaları daha yüngül olur. Eldəniz Səlimovun məsələsi isə sanki daha çox göz önünə çıxarıldı. Sizcə, burada hansısa yönləndirmə var idimi?***

-Bu, əslində doğru təsbitdir. İndiyə qədər məmurların cəzalandırılması yalnız simvolik xarakter daşıyırdı. Yalnız məsələ elin dilinə düşəndən sonra, ictimailəşəndə "xala-xətrin qalmasın" prinsipinə görə cəza alırdılar. Düşünürəm ki, artıq iqtidar bunun doğru olmadığını fikirləşir. Bu, onların özlərini geriyə aparır və daxili çürüməni tezləşdirir. Ona görə də nümunə olsun deyə birinci "özününküləri" cəzalandırmalısan. Əvvəlcə öz çevrəni ədalətli olmağa sövq etməlisən ki, sonra xalqdan da nəsə tələb edə biləsən. Ümid edirəm ki, bu, ilk addım olacaq ki, vəzifə səlahiyyətlərindən sui-istifadə edən, ona olan etimadı doğrultmayan komanda üzvü sərt cəzalandırıldı və bu, digərlərinə də nümunə oldu.

Bu, belə olacaqsa perspektivdə inkişaf da olacaq. Yox əgər onun məhkəmədə maddəsi dəyişdiriləcəksə, hansısa yüngül cəza ilə əvəz olunacaqsa, cinayəti törədənə bəraət veriləcəksə bu neqativlik artan istiqamətdə davam edəcək. Eləcə də dövlət və dövlətçiliyimiz üçün xoş hadisələr olmayacaq.

***Ağarza Elçinoğlu***

# Eldəniz Səlimov dərsi

## Və ya vəzifəli şəxslərin, səlahiyyət sahiblərinin iki seçimi haqqında bir neçə söz...



***Azərbaycanda belə bir məşhur atalar sözü var: "O dağa qar yağdı, bu dağa xəbərdir".***

Hələ ötən ay Azərbaycanda bir deputatın atasının sahibi olduğu şirkətlə bğlı qalmaqal yaşanmışdı. Həmin vaxt Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaydığı məlumatda deyilirdi ki, Xaçmaz rayonunun Fərzəlioba kəndində xüsusi mülkiyyətdə olan təqribən 27 hektar sahədə "Qərb Ekol" şirkəti tərəfindən aqrobağ salınması məqsədilə müxtəlifcinsli ağac və kol bitkiləri kəsilib, təbiətə ümumilikdə 65 040 manat məbləğində ziyan vurulub. Ziyanın məbləği cinayət tərkibi yaratdığından sənədlər Xaçmaz rayon prokurorluğuna göndərilib.

O zaman məsələyə münasibət bildirən deputat isə demişdi ki, məsələyə onun aidiyyəti yoxdur. Onun açıqlamasından belə qənaətə gəlmək olurdu ki, atasının işinə qarışmır.

Əlbəttə, bu açıqlama cəmiyyətdə haqlı olaraq səmimi qəbul edilməmiş, eyni zamanda belə fikirlər səslənmişdi: ictimaiyyətin adını ilk dəfə sözügedən qalmaqal sayəsində eşidib tanıdığı bu deputatla bağlı çox skandalın şahidi olacağıq. Çünki Azərbaycan reallığında oxşar təcrübəyə az şahidlik etməmişik. Hansısa vəzifəli şəxs, onun yaxınları bir qalmaqala imza atdımı, mütləq arxası gəlir, həmin vəzifəli şəxsin adı daha hay-küylü olaylara qarışır.

Təəssüf ki, ictimaiyyət yanılmadı və atasının sahibi olduğu şirkətin ağacları kəsməsi ilə gündəmə gələn deputat ölkədə geniş rezonans doğuran qalmaqala imza atdı.

Bəli, söhbət Eldəniz Səlimovdan gedir. Peşə borcunu yerinə yetirən polis əməkdaşına qarşı güc tətbiq edən və bunun cəzasını millət vəkilliyi toxunulmazlığından məhrum olunaraq barəsində həbs qətimkan tədbiri seçilməsi ilə çəkməyə başlayan Eldəniz Səlimovdan!

Qanunverici orqan təmsilçisi qanun keşikçisinə əl qaldırır! - Bu məsələnin absurd tərəfidir.

Cəmiyyətə davranışları ilə örnək olmalı olan biri özünü hüququn, ictimai maraqların üzərində görür! - Bu məsələnin əxlaqi tərəfidir.

Və belə nüansların siyahısını kifayət qədər artırmaq olar.

Lakin biz indi E.Səlimovun həm hüquqi, həm də ictimai-əxlaqi sərhədlərdən kənara çıxaraq qol qoyduğu özbaşınalığa başqa aspektdən yanaşmaq istəyirik.

Son illərdə ölkədə genişmiqyaslı islahatlar aparılır və bu islahatların nüvəsini vətəndaşla münasibətdə, xalqa və dövlətə xidmətdə, qanunlarla rəftarda vəzifəli şəxslərin (istər məmur olsun, istər millət vəkili, istərsə də hər hansı başqa biri....) milli maraqlar və hüquqi dəyərlər kontekstindən çıxış eləməsi təşkil edir.

Elə ayrı-ayrı yüksək mənsəb sahiblərinin son illərdəki həbsləri də bu sadə, ancaq həyati əhəmiyyətli həqiqətin təsdiqidir.

Ancaq təəssüf ki, bu sadə, ancaq həyati əhəmiyyətli həqiqəti anlamaqda, dərk və qəbul etməkdə çətinlik çəkənlər var.

Eldəniz Səlimovun timsalında biz bunun bir daha şahidi olduq.

Biriləri hələ də "köhnə hamam, köhnə tas" düşüncəsindədirlər; elə zənn edirlər ki, oturduqları kürsü, qazandıqları səlahiyyət onlara istədikləri zaman istədikləri kimi davranmaq, hüququn və ictimai əxlaqın sərhədləri kənarına çıxmaq, öz maraqlarını dövlətin və xalqın mənfəətlərinin üzərində görmək imkanı verir.

Birilərinə hələ də elə gəlir ki, hansısa vəzifə və səlahiyyət sahibidirlərsə, vətəndaşla da, qanunlarla da keflərinə uyğun davrana bilərlər.

Eldəniz Səlimov hadisəsi bu mənada NÖVBƏTİ DƏRSdir.

Dərsdir ki:

- kimlərsə heç vaxt tutduqları vəzifəyə, qazandıqları statusa və varidata güvənib özlərini TOXUNULMAZ saymasınlar, çünki qanunlar qarşısında hamının BƏRABƏRLİYİ artıq günümüzün qaçılmaz gerçəkliyidir;
- kimlərsə NƏYƏSƏ arxayın olub özlərini hüququn, ictimai və dövlət maraqlarının üzərində görməsinlər, çünki vəzifənin, vardövlətin, qohumbazlığın, "daydayılığın" dövranı artıq ARXADA QALIB;
- kimlərsə onlara göstərilən ETİMADdan sui-istifadə eləmək fikrinə düşməsinlər, artıq CƏZASIZLIQ mühiti aradan qalxır, hər kəs qanunsuz əməllərinin hesabını qanun qarşısında ödəmək məcburiyyətindədir: nazir də olsa, nazir müavini də; icra başçısı da olsa, deputat da!

Bu reallığı görmək, bu reallığa uyğun hərəkət eləmək indi zamanın diqtəsidir.

Və əgər biriləri hələ də bu diqtənin fərqində deyilsə, o zaman Eldəniz Səlimov hadisəsi bir fürsətdir ki, dərs alsınlar, ibrət götürsünlər.

Başqa seçim sadəcə yoxdur.

Ya da var: qandal və ədalət mühakiməsi!

***Sənan Mirzə***

# Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində müşavirə keçirilib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları çərçivəsində ədalət mühakiməsinin həyata keçirilməsində və cinayətkarlığa qarşı mübarizədə mühüm rol oynayan Məhkəmə Ekspertizası Mərkəzinin fəaliyyətinin müasirləşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, alternativ mexanizmlərin tətbiqi üzrə ardıcıl tədbirlər həyata keçirilir. Ədliyyə nazirinin müavini Eldar Nuriyevin sədrliyi ilə xüsusi karantin qaydalarına əməl olunmaqla nazirliyin Məhkəmə Ekspertizası Mərkəzində keçirilmiş müşavirədə bu sahədə görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.***

Nazirlikdən "Unikal"ya verilən məlumata görə, nazir müavini ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz sərkərdəliyi ilə Vətən müharibəsində xalqımızın parlaq qələbəsini, işğaldan azad edilmiş doğma torpaqlarımızın yenidən dirçəlişi istiqamətində irimiqyaslı tədbirlərin görüldüyünü, müharibə zamanı Ermənistanın dinc əhalimizə qarşı sülh və insanlıq əleyhinə törətdiyi cinayətlərinin istintaqı, dağıdılmış mülki infrastruktura dəymiş külli miqdarda ziyanın qiymətləndirilməsi məqsədilə hadisə yerlərinə baxışlar keçirildiyini, çevik qaydada ekspertizaların aparıldığını bildirib.

Müşavirədə mərkəzin rəis müavini vəzifəsini icra edən Rahim Rəhimov bu il mərkəzə daxil olan ekspertiza işlərinin sayının 16%-dən çox artaraq 21 mini ötdüyünü, onlardan 17.500-dən çoxunun icraatının tamamlandığını, ədalət mühakiməsinə əlçatanlığın təmin edilməsi üzrə aparılan davamlı işlərin nəticəsi olaraq mərkəzin 4 regional bölməsi tərəfindən aparılan ekspertizaların həcminin 30% artdığını vurğulayıb.

Həmin dövrdə ekspertlər tərəfindən 371 mindən çox tədqiqat obyekti araşdırılaraq 90 faizə yaxın - 39 mindən çox sual cavablandırılıb. Cari ildə tikinti-texniki, müharibə cinayətləri ilə bağlı olan ballistik, əmtəəşünaslıq, mühasibatlıq, narkotik vasitələrin, audio və video yazıların ekspertizaları üzrə işlərin sayında artım qeydə alınıb.

Ədalət mühakiməsinin həyata keçirilməsində operativliyin, məhkəmə müdafiəsi hüququnun təmin edilməsi məqsədilə ekspertizaların 72%-i qanunvericiliklə müəyyən olunmuş müddətdən tez başa çatdırılıb. Ekspertizaların keçirilməsi ilə bağlı dövlət büdcəsinə ödənilməli vəsaitin miqdarı ötən ilin müvafiq dövrü ilə müqayisədə 12%-dən çox artıb.

Ədliyyə orqanlarında işə yüksək tələbkarlığın və ekspertizaların keyfiyyətinin artırılması üzrə görülən tədbirlərin nəticəsi olaraq təkrar ekspertizaların sayı 13% azalıb. Məhkəmə və hüquq mühafizə orqanlarına metodik kömək məqsədilə təqdim olunmuş sənədlərin sayı 28% artıb.

Cari ildə özəl məhkəmə ekspertizası institutunun təşviqi məqsədilə "Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestri"nin və "Məhkəmə ekspertizasının metodik fondu"nun formalaşdırılması məqsədilə 198 tədqiqat metodikasına dair pasport hazırlanıb, metodik fondla bağlı 251 adda elmimetodiki materiallar tərtib edilib, maarifləndirici video-çarxlar və digər əyani vəsaitlər hazırlanıb.

Müşavirədə məhkəmə ekspertizası fəaliyyətində müasir İnformasiya-kommunikasiya texnologiyalarının və elektron xidmətlərin tətbiqi, beynəlxalq ələqələrin genişləndirilməsi sahəsində görülən işlər, beynəlxalq akkreditasiya ilə bağlı fəaliyyət barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, mərkəzdə 6 ekspert ixtisası üzrə ekspertizalar beynəlxalq akkreditasiyadan keçməklə həyata keçirilir.

İclasda görülmüş işlərlə yanaşı, mövcud nöqsan və çatışmazlıqlar diqqətə çatdırılaraq onların aradan qaldırılması istiqamətində görüləcək tədbirlər müəyyən edilib.

Müşavirəyə yekun vuran nazir müavini ölkə başçısının maliyyə intizamının gücləndirilməsi, dövlət vəsaitlərindən qənaətlə istifadə edilməsi, israfçılığa və lüzumsuz xərclərə yol verilməməsi barədə göstərişlərini diqqətə çatdırmaqla yanaşı qarşıda duran vəzifələrin yerinə yetirilməsi, ekspertiza fəaliyyətinin səmərəliliyinin artırılması, cinayətkarlığa qarşı mübarizədə profilaktik işlərin sürətləndirilməsi, ekspert rəylərinin keyfiyyətinin yüksəldilməsi, vətəndaşların, xüsusilə şəhid olmuş, itkin düşmüş, əlil olmuş şəxslərin ailə üzvlərinin müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı zəruri tapşırıqlar verib.

***Hüseyn İsgəndərov***

# Deputatın qızının toyunda karantin qaydaları pozulub? - RƏSMİ

***Sosial şəbəkələrdə millət vəkili, bəstəkar Novruz Aslanın qızının toyunda karantin qaydalarının pozulmasına dair xəbərlər və foto yayılıb.***

"Unikal"ın məlumatına görə, Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən Lent.az-a bildirilib ki, sosial şəbəkələrdə yayılan həmin foto sözügedən toyda çəkilməyib:

"Bütün şadlıq evlərində olduğu kimi, həmin toyda da monitorinq aparılıb. Toy məclisində Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi qaydalara zidd hər hansı bir fakt və ya pozuntu aşkar edilməyib. Sosial şəbəkələrdə yayılan foto həmin toyda çəkilməyib".

Qeyd edək millət vəkilinin qızı Günelin toyu ötən gün baş tutub.

# Nazirlik Bakıda ağacın kəsilməsi ilə bağlı araşdırmalara başladı

***Bakı şəhəri, Maqsud Əlizadə küçəsi 17 ünvanında ağacların kəsilməsi ilə bağlı Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinə daxil olan şikayət yerində araşdırılıb.***

Xidmət rəsmisi Vaqif Cavadov Unikal.org-a bildirib ki, aerokosmik görüntülər əsasında tikinti işləri aparılan ərazidə 2 ağacın götürülərək məhv edildiyi müəyyən olunub.

"Hazırda torpaq mülkiyyətçisinin və təqsirkarların müəyyən olunması istiqamətində araşdırmalar davam etdirilir".

Nazirlik rəsmisi yaşıllıqlara qayğı ilə yanaşan, onların mühafizəsinə həssas münasibət göstərərək nazirliyə məlumat verən ictimaiyyət nümayəndələrinə təşəkkürünü bildirib.

# Azərbaycana qarşı döyüşən terrorçular yaralandılar

***Bu gün Ermənistanın Sünik vilayətində yol qəzası baş verib.***

"Unikal" Ermənistan KİV-nə istinadən xəbər verir ki, hadisə nəticəsində 3 nəfər yaralanıb. Yaralanan şəxslər 44 günlük Qarabağ müharibəsində və Aprel döyüşlərində Ermənistan tərəfindən VOMA adlı terror təşkilatının sıralarında vuruşublar.

Qeyd edək ki, ötən ilin noyabrın 3-də Azərbaycan Baş Prokurorluğu VOMA təşkilatını və onun lideri Vova Vardanovu terrorçu elan edib.

# Vüqar Səfərlinin məhkəməsi keçirilir

***Ləğv edilmiş Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) sabiq icraçı direktoru Vüqar Səfərli, müvafiq vəzifələrdə çalışmış Bünyamin İsmayılov, Ədalət Vəliyev, Nadir Məmmədov, Bəxtiyar Fətullayev, Təmkin Xəlilov, Telman Tahirov, Valeh Orucov, Təhminə Yaqubova, Şahin İbrahimov və Namiq Hacıyevin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilir.***

"Unikal" xəbər verir ki, cinayət işinə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Paşayevin sədrliyi ilə baxılır.

Prosesdə təqsirləndirilən şəxslərin vəkilləri vəsatətlərlə çıxış edir.

Qeyd edək ki, ləğv edilmiş Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun vəzifəli şəxslərinin qanunsuz əməllərinə dair Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olan cinayət işinin istintaqı yekunlaşdırılıb.

Aparılmış istintaq tədbirləri ilə Fondun sabiq icraçı direktoru Vüqar Səfərlinin müvafiq vəzifələrdə çalışmış Bünyamin İsmayılov, Ədalət Vəliyev, Nadir Məmmədov və digər 7 nəfər şəxslə qabaqcadan əlbir olub vəzifə səlahiyyətlərindən sui-istifadə edərək dövlət satınalmalarına dair qanunvericiliyin tələblərinin pozulması, dövlət vəsaitlərinin təyinatı üzrə istifadə edilməməsi, tikinti normalarına əməl olunmamaqla iş həcmləri və qiymətlərinin şişirdilməsi yolu ilə dövlətə məxsus ümumilikdə 18 milyon 500 min manat məbləğində pul vəsaitinin mənimsəmə və israf etmə yolu ilə talanmasına, rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə vəzifə saxtakarlığı törədilməsinə, habelə cinayət yolu ilə əldə edilmiş 5 milyon 700 min manat pul vəsaitinin leqallaşdırmasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Vüqar Səfərli və digərlərinə müvafiq olaraq Cinayət Məcəlləsinin 179.4 (mənimsəmə- xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma- külli miqdarda törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə- ağır nəticələrə səbəb olduqda), 313 (vəzifə saxtakarlığı) və digər maddələri ilə ittiham elan edilmiş, Vüqar Səfərli barəsində məhkəmənin qərarı ilə həbs, digər şəxslər barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

İbtidai istintaq zamanı cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın bir hissəsinin ödənilməsi təmin edilmiş, habelə təqsirləndirilən şəxslərə məxsus olan daşınar və daşınmaz əmlak və bank əmanətlərinin üzərinə həbs qoyulub.

Cinayət işi üzrə Medianın İnkişafı Agentliyi (MEDIA) zərərçəkmiş qismində tanınıb.

# Cahangir Əsgərovun çoxillik inadı...

## Nə vaxtsa AZAL-ın hesabat verdiyini görmək bizə qismət olacaqmı?



***Bu günlərdə məlum oldu ki, Azərbaycanda mərkəzi icra hakimiyyəti orqanı kimi fəaliyyət göstərən 13 iri dövlət şirkətinin - açıq və qapalı səhmdar cəmiyyətlərinin 8-i 2020-ci il üzrə maliyyə hesabatını açıqlamayıb.***

Onların arasında "Azərbaycan Sənaye Korporasiyası", "Azərxalça", "Azəristiliktəchizat" və "Azərkontrakt" ASC-lərdən, eləcə də "AzerGold", "Azərbaycan Dəmir Yolları", "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-dən başqa "Azərbaycan Hava Yolları" (AZAL) da var.

Əslində Cahangir Əsgərovun rəhbərlik etdiyi QSC-nin bu siyahıda olması təəccüblü deyil. Çünki "Unikal" qəzetinin araşdırması AZAL-ın ötən illərdə də hesabat vermədiyini ortaya qoyub.

Məsələn, "Azərbaycan Hava Yolları" 2017-ci ilin maliyyə (audit) hesabatını da açıqlamamışdı.

Sonrakı il də bu "ənənəni" davam etdirən şirkətin ümumiyyətlə götürdükdə sonuncu dəfə nə vaxt hesabat açıqladığını kimsə xatırlamır.

Media bu mövzuda illərdir yazır, müstəqil ekspertlər, mütəxəssislər illərdir bu məsələni gündəmə gətirir, lakin Cahangir müəllimin inadını qırmaq mümkün olmur ki, olmur! AZAL "şefi" illik hesabat verməməkdə əməlli-başlı direşir.

Bu yerdə maraqlı bir nüansa toxunmamaq olmur. Belə ki, dövlət şirkətlərinin fəaliyyətinin hesabatlılığı, şəffaflığı və səmərəlilik məsələsi 2015-ci il böhranından sonra ciddi şəkildə gündəmə gəlib və bu istiqamətdə Prezidentin müvafiq sərəncamları olub. Həmin sərəncamlarda Nazirlər Kabinetinə göstərişlər verilib ki, dövlət şirkətlərinin şəffaflığının, hesabatlılığının artırılması və idarəetmənin təkmilləşdirilməsi məqsədilə addımlar atılsın.

Ötən ilin iyununda isə Nazirlər Kabinetinin qəbul etdiyi qərara uyğun olaraq müəyyən edilmiş vaxtadək dövlət şirkətləri hesabatlarını dərc etməlidir. Bu hesabatlarda maliyyə, illik fəaliyyət hesabatlarının dərc edilməsi tələb olunur. Lakin aparılan müstəqil araşdırmalar da, elə rəsmi məlumatlar da dövlət şirkətlərinin sadəcə bir hissəsinin öz hesabatlarını açıqladığını göstərir. Başda AZAL olmaqla bir çox dövlət şirkətləri isə hələ də bu məsələ ilə bağlı laqeydlik nümayiş etdirirlər. Niyə? Bax bu sualın cavabı çox maraqlıdır.

Axı Cahangir Əsgərov bilməmiş deyil ki, hesabatlılıq şəffaflıq deməkdir.

Hesabatlılığın olmadığı yerdə şəffaflıq ola bilməz. Şəffaflığın olmadığı yerdə isə yalnız korrupsiyadan danışmaq mümkündür.

Bəlkə bu gün biz AZAL-ın borc bataqlığında çabalamasının sirrini də elə bu QSC-nin illərdən bəridir hesabat açıqlamamasında axtarmalıyıq? Bəlkə elə bu qeyri-hesabatlılığın nəticəsidir ki, öz sahəsində inhisarçı şirkət olmasına baxmayaraq AZAL hər il zərər eləməklə məşğuldur?

Əvəzində isə Cahangir müəllim və ailəsinin biznesi görünməmiş sürətlə və misilsiz miqyasda böyüyür, çiçəklənir. Kimsə təminat verə bilərmi ki, həmin böyümənin, çiçəklənmənin kökündə də "Azərbaycan Hava Yolları" rəhbərinin hesabat verməməsi, yaxud da hesabat vermək istəməməsi dayanır?!

Sonda hələ uzaq 2017-ci ildə mediada yer alan bir materialdan kiçik bir parçanı təqdim edirik, niyəsini isə sonda qeyd eləyəcəyik. Öncə buyurub oxuyun: "Maraqlıdır ki, AZAL-ın fəaliyyəti barədə Azərbaycan çərçivəsində məlumatlar əldə etmək çətindir. Dövlət şirkəti olmasına baxmayaraq, nə öz saytında, nə də digər yerli resurslarda öz hesabatını açıqlamır. Onun hesabatlarını yalnız Böyük Britaniya şirkətlər reyestrində, ya da başqa beynəlxalq resurslarda tapmaq olar.

"Mühasibat uçotu haqqında" qanunun və Nazirlər Kabinetinin 27 may 2010-cu il tarixli 97 saylı və 1 oktyabr 2014-cü il tarixli 321 saylı qərarlarına əsasən AZAL həm ictimai əhəmiyyətli, həm də dövlət zəmanəti ilə kredit alan qurum kimi növbəti ilin aprel ayının sonunadək audit hesabatı ilə birlikdə öz internet səhifəsində dərc etməlidir. Ancaq qurum hələ də hesabatlarını ictimaiyyətə açıqlamır..."

Bəli, aradan dörd il keçib və AZAL-ın audit hesabatları təqdim eləməsi ilə bağlı dəyişən heç nə yoxdur.

Nə vaxtsa olacaqmı? Bu suala cavab vermək olduqca çətin, hətta bəlkə də mümkünsüzdür. Çünki həmin cavabı, böyük ehtimalla, Cahangir Əsgərovdan başqa heç kim bilmir...

***Toğrul Əliyev***

# Mədəniyyət naziri Anar Kərimovun diqqətinə...

## Həftənin replikası: nazirlikdə bəziləri hələ də "Əbülfəs Qarayevin yolu" ilə gedir?

***Azərbaycanda az qala elə bir gün, elə bir həftə yoxdur ki, hansısa dövlət qurumunun satınalma müsabiqəsi ilə bağlı qalmaqallı sayıla biləcək, ictimai rəydə haqlı olaraq suallar yaradan, şübhələrə yol açan informasiyalara rastlamayaq. Bu mövzu ilə bağlı KİV nə qədər yazsa, ekspertlər nə qədər tənqidi fikirlər səsləndirsə, hətta rəsmilər, deputatlar belə narazılıq ifadə eləsə, xəbərdarlıqlarını dilə gətirsə də, təəssüf ki, dəyişən heç nə yoxdur.***

Yola salmaq üzrə olduğumuz həftə yayılan bir məlumat yazdıqlarımızı təsdiqləyir.

Belə ki, yerli mətbuatda Mədəniyyət Nazirliyinin Gəncə Regional Mədəniyyət İdarəsi dəftərxana və təsərrüfat mallarının satın alınması üzrə müsabiqəyə yekun vurulması ilə bağlı xəbər yayıldı.

Məlumatdan belə aydın olurdu ki, müsabiqənin qalibi "Etnik Gələcək-2021" MMC-dir. Satınalma müqaviləsinin maliyyə dəyəri isə 78 926.07 AZN-dir.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarında göstərilir ki, "Etnik Gələcək-2021" MMC 22 dekabr 2020-ci il tarixdə qeydiyyata alınıb. Nizamnamə kapitalı 100 AZN olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Binəqədi rayonu, Həmzə Babaşov küçəsi, 9-cu mikrorayon, ev 6, mənzil 37-də yerləşir. MMC-nin qanuni təmsilçisi isə Əbilov Qabil İslam oğludur.

"Etnik Gələcək-2021" MMC yeni yaranan şirkət olsa da, artıq 6 satınalma müsabiqəsinin qalibi olub. Bunlardan ikisi Mədəniyyət Nazirliyinin idarələri ilə bağlıdır. Belə ki, Ağdaş Regional Mədəniyyət İdarəsi ilə 92, Şəmkir Regional Mədəniyyət İdarəsi ilə isə 59 min 781 manatlıq satınalma müqaviləsi imzalayıb. Həmin sıraya artıq Gəncə Regional Mədəniyyət İdarəsi də daxil olub.

"Dövlət Satınalmaları haqqında" Qanunun 6.2.5-ci maddəsinin tələblərinə görə vergi borcu olan şirkətlərin satınalma müsabiqələrində iştirakı mümkün deyil. "Etnik Gələcək-2021" MMC-nin isə bu günə olan vergi borcu 599.26 AZN təşkil edir.

Bundan başqa, sözügedən qanuna görə satınalma müsabiqələrində iştirak üçün peşəkarlıq və iş təcrübəsi gərəkdir. "Etnik Gələcək-2021" MMC-nin yaranmasının üzərindən isə heç bir il keçməyib.

(Kiçik haşiyə: medianın ortaya çıxardığı bu faktla bağlı istər Mədəniyyət Nazirliyi, istərsə də qalib şirkət hər hansı açıqlama verməyib. Bu isə təəccüb və təəssüf doğurur).



Yerli KİV isə ona diqqət çəkir ki, həm vergi borcu olan, həm də yeni yaranmış bir şirkət daha çox Mədəniyyət Nazirliyi ilə "əməkdaşlıq" edir. Bu əməkdaşlığa nazirlikdə kimin, yaxud kimlərin "yaşıl işıq" yandırması isə maraq doğurur.

Fikrimizcə, Mədəniyyət naziri Anar Kərimov xüsusilə dövlət satınalmalarında şəffaflıq, obyektivlik və qanunların aliliyi prinsipinə xüsusi diqqət göstərməlidir. Bunun səbəbi aydındır: keçmiş nazir Əbülfəs Qarayevin zamanında sözügedən nazirlikdəki korrupsiyanın əsas istiqmətlərindən biri məhz keçirilən tenderlərlə bağlı idi. Həmin tenderlərdə hansı qanunsuzluqlara yol verildiyi isə keçirilən xüsusi əməliyyat nəticəsində açıq şəkildə ortaya çıxmışdı.

Belə görünür, Mədəniyyət Nazirliyində bəziləri hələ də özünü Qarayev zamanında hiss edir, yaxud onun "yolu" ilə getməkdə heç bir problem görmür. Belə olmasaydı, indi ölkə KİV-ləri vergi borcu olan bir şirkətin həmin nazirlikdə ard-arda dövlət satınalmaları ilə bağlı müsabiqələrin qalibinə çevrilməsindən yazmaq məcburiyyətində qalmazdı.

Hər halda, Anar müəllimin bu tipli satınalmalara vaxtında müdaxiləsi qaçılmazdır. Əks halda biz Əbülfəs Qarayevin zamanında olduğu kimi, yenə də Mədəniyyət Nazirliyi barədə tənqidi materiallar oxumağa vərdiş edəcəyik. Bu nazirlikdə müəyyən məmurlara artıq vəziyyətin kökündən dəyişdiyini, hər hansı korrupsiyaya, üstəlik də, nəinki böyük nöqsanlara, hətta ən xırda qanunsuzluğa belə fürsət verilməyəcəyini anlatmaq lazımdır.

Sonra gec ola bilər.

Həm də çox gec ola bilər.

***Hüseyn İsgəndərov***

# "Referenduma və ya parlamentin buraxılmasına zərurət yoxdur" - Deputat



***"Bəzi KİV-lərdə guya Azərbaycanda Konstitusiyaya dəyişikliklərin edilməsi ilə əlaqədar referendumun keçirilməsi və Parlamentin buraxılmasına dair heç bir fundamental əsası olmayan fikirlər yer alıb. Bütün bunlar süni şəkildə gündəm yaratmağa hesablanmış uğursuz manipulyasiyaslar olmaqla yalnız radikal siyasi qüvvələrin maraqlarına xidmət edə bilər".***

Bunu Azvision.az-a Millət vəkili, YAP İdarə Heyətinin üzvü Elşad Mirbəşir oğlu deyib.

"Əvvəla, dövlət başçımız tərəfindən ölkəmizdə genişmiqyaslı və köklü islahatlara start verilən zaman yeni çağırışlara ən tez reaksiya verən qurumlardan biri Milli Məclis oldu. Azərbaycan Parlamenti cənab Prezidentin yeni idarəçilik konsepsiyasına adekvat olaraq növbədənkənar seçkilərə getdi və nəticədə hakimiyyətin bu qanadında böyük dəyişikliklər reallaşdı. Növbədənkənar parlament seçkilərindən sonra ölkəmizin siyasi palitrasında təmsil olunan siyasi qüvvələr arasında müsbət dialoq mühiti formalaşdı. Bu, yeni siyasi mədəniyyətin təzahürüdür"-deyə, deputat qeyd edib.

Onun sözlərinə görə, ötən müddət ərzində ali qanunverici orqan yeni formalaşan konfiqurasiyası ilə istər qanunvericilik fəaliyyəti, istərsə də digər funksiyaları çərçivəsində mühüm nailiyyətlərə imza atıb:

"Milli Məclis 2020-2021-ci qanunvericilik ilində qanun yaradıcılığı istiqamətində olduqca intensiv fəaliyyətlə yadda qaldı. Pandemiya şəraitində millət vəkilləri seçicilərlə həm onlayn, həm də canlı formada görüşlər keçirməkdədirlər. Seçicilərin müraciətləri, qayğıları diqqətlə dinlənilir, onların həlli ilə bağlı əlaqədar icra orqanlarına məktublar göndərilir. Eyni zamanda deputatlar vətəndaşları narahat edən məsələləri həm parlament tribunasından səsləndirir, həm də media vasitəsilə cəmiyyətə çatdırır.

Bu yaxınlarda Azərbaycan, Türkiyə və Pakistan parlamentləri arasında imzalanan Bakı Bəyannaməsi bir daha təsdiq etdi ki, Milli Məclis ölkəmizin beynəlxalq əlaqələrinin qurulmasına olduqca mühüm töhfələr verir. Parlament diplomatiyasının inkişaf etdirilməsi daha intensiv xarakter almışdır".

Millət vəkili hesab edir ki, Azərbaycanda referenduma və ya Parlamentin buraxılmasına hər hansı bir zərurət yoxdur: "Hakimiyyətin hər üç qanadı öz funksiyalarını peşəkarlıqla yerinə yetirir".

# Eldəniz Səlimova deputat maaşı veriləcək

***"Toxunulmazlığı ləğv edilən Milli Məclisin deputatı Eldəniz Səlimova deputat maaşı veriləcək".***

"Unikal" xəbər verir ki, bunu "Report"a Milli Məclisin İntizam komissiyasının katibi Nurlan Həsənov deyib.

Onun sözlərinə görə, E.Səlimovun toxunulmazlığı ləğv edilib, amma mandatı alınmayıb: "Buna görə də ona deputat maaşı veriləcək. Əgər məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olarsa, onun deputat səlahiyyətlərinə xitam veriləcək və Eldəniz Səlimova maaş verilməyəcək".

İntizam komissiyanın katibi onu da bildirib ki, E.Səlimova deputatlıq səlahiyyətləri ilə bağlı hər hansı məhdudiyyət tətbiq olunmayıb: "Sadəcə onun toxunulmazlığı əlindən alınıb".

Qeyd edək ki, "Milli Məclis deputatının statusu haqqında" qanunun 21-ci maddəsində qeyd edilib ki, Milli Məclisin sədri 2 475 manat miqdarında aylıq vəzifə maaşı alır. Milli Məclisin deputatı isə Milli Məclis sədrinin aylıq vəzifə maaşının 70 faizi miqdarında (1 732,5 manat) aylıq vəzifə maaşı alır.

Xatırladaq ki, iyulun 29-da Xaçmaz şəhərində yerləşən "Starıy Dvor" restoranında Azərbaycan Respublikası Milli Məclisinin deputatı Eldəniz Səlimovun polis əməkdaşına xidməti vəzifələrinin icrası ilə əlaqədar zor tətbiq etməsi barədə Daxili İşlər Nazirliyindən daxil olan material Baş Prokurorluqda araşdırılıb.

Toplanan material üzrə Cinayət Məcəlləsinin 309.2-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə cinayət işi başlanıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılıb.

Baş prokuror Kamran Əliyev "Azərbaycan Respublikası Milli Məclisinin deputatı Eldəniz Adil oğlu Səlimovun toxunulmazlığına xitam verilməsi haqqında" parlamentə təqdimat göndərib. Parlamentin avqustun 3-də keçirilən növbədənkənar sessiyasının iclasında təqdimata baxılaraq E.Səlimovun deputat toxunulmazlığına xitam verilib.

Binəqədi Rayon Məhkəməsinin qərarı ilə E.Səlimov barəsində 3 ay həbs qətimkan tədbiri seçilib.

# Tələbələrin təhsil haqqını mənimsəyən BSU-nun şöbə müdirindən XƏBƏR VAR

***Bakı Slavyan Universitetinin (BSU) əlavə və qiyabi təhsil şöbəsinin sabiq müdiri Dürdanə Əliyevanın cinayət işi üzrə üzrə məhkəmə prosesi başlayıb.***

Unikal.org xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əli Məmmədovun sədrliyi ilə keçirilən hazırlıq iclasında təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmə baxışı avqustun 16-a təyin olunub.

Qeyd edək ki, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Bakı Slavyan Universitetinin (BSU) əlavə və qiyabi təhsil şöbəsinin müdiri, dosent Dürdanə Əliyeva barəsində araşdırma aparılıb.

Dürdanə Əliyevanın qanunsuz əməlləri törətməsi barədə çoxsaylı şikayətlər araşdırılıb. Onun barəsində Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə), 32.4, 312.2 (rüşvət verməyə təhrik etmə), 311.1 (rüşvət alma) maddələri ilə cinayət işi başlanılıb.

# Sumqayıtda qanunsuz su xətləri kəsilib

***"Azərsu" ASC Prezident İlham Əliyevin təsdiqlədiyi "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq su itkilərinin və israfçılığın qarşısının alınması məqsədilə nəzarət tədbirlərini davam etdirir.***

"Unikal" xəbər verir ki, bu barədə qurumun açıqlamasında bildirilir. Məlumatda həmçinin deyilir ki, sudan qanunsuz istifadə hallarının araşdırılması üçün "Azərsu"yun yaratdığı xüsusi qrupların araşdırmaları nəticəsində Sumqayıt şəhərində içməli sudan uçotsuz və sayğacdankənar xətlərdən istifadə halları aşkarlanıb.

Şəhərdə həyata keçirilən nəzarət tədbirləri nəticəsində vətəndaşlar və sahibkarlar tərəfindən su təchizatı sistemlərinə qeyri-qanuni müdaxilə olunduğu və sudan qanunsuz istifadə edildiyi aşkar edilib. Aparılan yoxlamalar zamanı məlum olub ki, Bakı-Sumqayıt avtomobil yolunun kənarında yerləşən "Qu Gölü" restoranında su sayğacı olsa da su təchizatı sayğacdankənar xətt vasitəsilə aparılıb. "Məhəllə" adlanan kafedə də sudan uçotsuz istifadə halı üzə çıxıb. Su təchizatı sistemlərinə qoşulmaq üçün texniki şərti olmayan kafenin sahibi yaxınlıqdakı şəbəkədən özbaşına birləşmə edib.

Nəzarət tədbirləri zamanı Sumqayıt şəhərinin ətraf qəsəbə və yeni yaşayış massivlərində bəzi sakinlərin sudan uçotsuz və sayğacdankənar istifadə etdiyi məlum olub. Hətta elə abunəçilər var ki, unikal üsullardan istifadə edərək, gizli yollarla ev və həyətyanı sahələrə qanunsuz su xəttləri çəkib.

Aşkarlanan hər bir fakt üzrə zəruri tədbirlər görülüb, özbaşına çəkilmiş xətlər və qoşulmalar ləğv edilib, qanunsuz istifadəyə görə dəymiş ziyan hesablanaraq, ödənişə yönəldilib. Eyni zamanda vətəndaşlar və sahibkarlar içməli su şəbəkələrinə qoşulmaq üçün texniki şərtin alınması və qoşulma qaydaları barədə məlumatlandırılıb. "Azərsu" vətəndaşları bir daha bu cür əməllərdən çəkinməyə çağırır və bildiririk ki, belə qanunazidd halların qarşısını almaq üçün tədbirlər davam etdiriləcək.

Bu ilin I yarısında sudan qanunsuz istifadə ilə bağlı "Azərsu" üzrə 9 169, Sumqayıt şəhəri üzrə isə 954 fakt aşkarlanıb. Bu hallar üzrə müvafiq olaraq, 2,44 milyon kubmetr, Sumqayıt şəhəri üzrə isə 265 min kubmetr sərfiyyat bərpa olunub.

# Həbib Həsənov vəzifəsindən uzaqlaşdırılır

## Dövlət Avtomobil Nəqliyyatı Xidmətində rəis dəyişikliyinin olacağı barədə iddialar haradan qaynaqlanır?



***Bu günlərdə yerli mediada Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Rəşad Nəbiyev qurumun Dövlət Dəniz Agentliyinin direktoru Qüdrət Qurbanov və Dövlət Avtomobil Nəqliyyat xidmətinin rəisi (DANX) Həbib Həsənovun vəzifələrindən azad ediləcəyi ilə bağlı məlumatlar yayılıb. Rəsmi olaraq təsdiqlənməsə də, təkzib də edilməyən həmin məlumata görə artıq hər iki qurum rəhbəri məzuniyyətə göndərilib.***

İddialara görə, Dövlət Dəniz Agentliyinin direktor vəzifəsi qurumun direktor müavini Fərhad Məmmədova həvalə edilib. Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəis əvəzi funksiyasını isə yeni təyin olunan rəis müavini Anar Rzayev yerinə yetirir.

Xatırladaq ki, Həbib Həsənov sabiq Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadənin 8 may 2017-ci il tarixli əmri ilə Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi vəzifəsinə təyin edilib. Həmin vaxt Xidmətdə rəhbər dəyişikliyi bu qurumda çoxsaylı korrupsiya faktlarının mövcudluğu ilə izah edilirdi. Bu faktların bir çoxu Hesablama Palatasının hesabatlarında da yer almışdı.

Məsələn, 2016-cı ildə məlum olmuşdu ki, Palata DANX-nin maliyyə-təsərrüfat fəaliyyətinin auditini keçirib və audit nəticəsində müəyyən edilib ki, DANX-da dövlət qulluğuna aid edilən vəzifələr üzrə işə qəbul prosesi dövlət qulluğu haqqında müvafiq hüquqi aktların tələbləri gözlənilmədən həyata keçirilib, vergi qanunvericiliyinin tələbləri pozularaq muzdlu işlə əlaqədar ödəmə mənbəyi tutulan fiziki şəxslərin gəlir vergisi azaldılıb, mükafatlardan müvafiq tutmalar düzgün həyata keçirilməyib. Həmçinin aydın olmuşdu ki, ezamiyyətlərin ödənilməsi ilə bağlı xərclərin müvafiq normativ aktlara uyğun icra edilməməsi nəticəsində, eləcə də beynəlxalq və respublika səviyyəli tədbirlərin keçirilməsinə, həmçinin idarəçilikdə olan hüquqi şəxslərin maddi-texniki bazasından (nəqliyyat vasitələri parklarından) istifadə olunmadan artıq vəsait icra edilib. Digər çoxsaylı nöqsanların da sadalandığı hesabat DANX-də islahatların zəruriliyindən xəbər verirdi.

Nəticədə Xidmətdə rəhbər dəyişikliyi baş verdi.

Lakin bu dəyişikliyin qurumun fəaliyyətində köklü dəyişikliklərə gətirib çıxardığını söyləmək çətindir. Ortada hələ də ciddi qüsurlar mövcuddur. Misal üçün, Hesablama Palatasının rəhbəri Vüqar Gülməmmədovun Milli Məclisə təqdim etdiyi hesabat sənədindən (2020-ci il) sitat: " 2019-cu ildə Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün tutulan dövlət rüsumu üzrə proqnoz 15,0 mln. manat, daxil olan vəsait isə 17,0 mln. manat olmaqla proqnozun 109,2% səviyyəsində icra edilməsinə baxmayaraq, cəmi hesablanmış dövlət rüsumunun məbləği 19,9 mln. manat təşkil etmişdir ki, nəticədə də bu mənbədən dövlət büdcəsinə hesablanmış və daxil olmuş rüsum məbləği arasında 2,9 mln. manata yaxın fərq yaranmışdır. Dövlət qurumları tərəfindən təqdim edilmiş məlumatların üzləşdirilməsi nəticəsində yaranmış fərqin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti tərəfindən tutulmuş dövlət rüsumlarının büdcə gəlirlərinə mədaxili üzrə təsnifat kodunun düzgün müəyyən edilməməsi səbəbindən baş verdiyi aşkar olunmuşdur..."

2,9 milyon manatlıq həmin fərqin aradan necə qaldırıldığını bilmirik. Lakin büdcə ödənişində bu cür nöqsan və digər faktlar, DANX-nin fəaliyyəti ilə bağlı mətbuatda zaman-zaman özünə yer alan tənqidi fikirlər, ittihamlar (məsələn Xidmət müfəttişlərinin sürücülərlə davranışı barədə şikayətlər və s.) qurumun rəisi H.Həsənovun vəzifədən uzaqlaşdırılacağı ilə bağlı iddiaların gerçəkləşmə ehtimalını artırır.

Maraqlıdır ki, DANX Həbib müəllimin rəislikdən azad ediləcəyi ilə bağlı KİV-də yayılan məlumatlara da indiyədək hər hansı reaksiya verməyib. Bunun özü də sözügedən məlumatlarda həqiqət payının yüksək olduğuna dair qənaət formalaşdırıb.

DANX-də həqiqətən rəhbər dəyişikliyinin baş verib-verməyəcəyini isə yaxın zamanda görəcəyik. Odur ki gözləyək...

***Cavid***

# "Leş Tofiq"in qardaşı həbs edildi



***Aşağı Güzdək qəsəbəsi ərazisində narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi, həmçinin, narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan şəxslərə qarşı əməliyyatlar həyata keçirilib.***

Unikal.org xəbər verir ki, Qobu Polis Bölməsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat zamanı narkotik tərkibli çətənə kollarının kultivasiyası ilə məşğul olan, əvvəllər dəfələrlə məhkum edilmiş qəsəbə sakini Rasim Rzaxanov da saxlanılıb. Onun evinin həyətinə baxış zamanı 1 kiloqrama yaxın marixuana və 15 ədəd xüsusi qulluq edərək yetişdirdiyi çətənə kolu aşkar edilib. Rasim Rzaxanov ifadəsində narkotik tərkibli bitkiləri əkib-becərdiyini və xüsusi qulluq edərək yetişdirdiyini etiraf edib.

Qeyd edək ki, narkotik vasitələrin kultivasiyası, eləcə də qanunsuz dövriyyəsində şübhəli bilinən Rasim Rzaxanov ölmüş iri buynuzlu qidaya yararsız mal və at ətlərinin respublikanın müxtəlif rayonlarından toplanması, tədarükü, həmçinin emalı ilə məşğul olduğu üçün bir neçə il bundan əvvəl saxlanılan mütəşəkkil dəstə başçısı Alıbəy Rzaxanovun ("Leş Tofiq") qardaşıdır.

Faktlarla bağlı Qobu Polis Bölməsində toplanan materiallar araşdırılması üçün Abşeron Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə göndərilib.

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Qarabağın bərpası Qarabağ həqiqətlərinin dünyaya çatdırılması ilə paralel aparılmalıdır!

## Əlməmməd Nuriyev: "Qarabağ həqiqətləri dünyaya çatdırılmalıdır ki, təcavüzkar dövlət vurduğu ziyanı Azərbaycana ödəsin"

***44 günlük savaşdan sonra Qarabağ dirçəliş-bərpa dövrünü yaşayır. İşğaldan azad olunmuş Qarabağda minaların təmizlənməsi ilə paralel olaraq, dağıdılmış ərazilərin bərpası istiqamətində də işlər aparılır. Qarabağda quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait nəzərdə tutulub. Bununla paralel olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" yaradılıb.***

Bu fond Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyin göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

Ölkəmiz Qarabağın bərpasına lazım olan vəsaiti ayırsa da, dəymiş ziyanın, torpaqlarımızı 28 il işğal altında saxlayaraq xarabalığa çevirən təcavüzkar dövlət tərəfindən ödənilməsi də vacibdir. Ekspertlər də buna nail olmaq üçün Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması, dəymiş ziyanın hesablanmasına xarici təşkilatların cəlb edilməsini vacib hesab edirlər.

Konstitusiya Araşdırmalar Fondunun rəhbəri Əlimənmməd Nuriyev deyir ki, noyabrın 10-u imzalanmış bəyanat Azərbaycana Ermənistan siyasi-hərbi



rəhbərliyinin 1990-cı illərdən bugünədək Azərbaycan ərazisində və azərbaycanlılara qarşı törətdikləri cinayətkar əməllər barədə bütün sənədlər məhkəmə predmetidir: "Ermənistanın siyasi-hərbi rəhbərliyi 1990-cı illərdən başlayaraq, Qarabağ müharibəsinin aktiv fazası olan 1991-93-cü illər ərzində, həmçinin atəşkəs dövründə, 2020-ci ilin sentyabrın 27-dək və bu gündən sonra başlamış hərbi əməliyyatların gedişində Azərbaycanın mülki əhalisi, mülki obyektlərinə qarşı cinayətlər törədib. Onların cinayətləri bununla bitmir. Bütün işğal müddəti ərzində həm Ermənistan rəhbərliyi, həm də Qarabağdakı qondarma, separatçı rejim işğal altındakı ərazilərdə təbiətə qarşı soyqırım həyata keçirib, Azərbaycanın təbii ehtiyatlarını, milli-mədəniyyət nümunələrini, tarixi abidələrini məhv ediblər. Ermənistanın döyüş əməliyyatlarına cəlb etdiyi muzdlular, qanunsuz yerləşdirmə barədə də Azərbaycan sənədlər, sübutlar əldə edib və cinayət işi açılıb. Silahlı müdaxilə nəticəsində Azərbaycana dəymiş maddi ziyanın müəyyənləşdirilməsi ilə bağlı komissiya yaradılıb. Bütün bunlarla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən cinayət materialları toplanıb. Baş Prokurorluq bu barədə dəfələrlə bəyanat verib. Bütün bunlar Ermənistan siyasi və hərbi rəhbərliyinin cinayət məsuliyyətinə cəlb edilməsi üçün real faktlar, sübutlardır və hamısı da məhkəmə predmetidir. Bu sənədlər həm Azərbaycan daxilində cinayətkarların mühakimə olunması, həm də beynəlxalq məhkəməyə çəkilmələri üçün yetərlidir. Bütün bu sənədlər beynəlxalq məhkəməyə təhvil verilməli və cinayətkarların cəzalandırılması tələb edilməlidir. Həmçinin Azərbaycana dəymiş ziyanın ödənməsi məsələsi də mütləq qaldırılacaq. Yəni, Ermənistanın siyasi-hərbi rəhbərliyi törətdikləri cinayətlərə görə mütləq mühakimə olunacaqlar. Hesab edirəm ki, bu məsələdə vətəndaşlarımız da aktivlik göstərməlidirlər. Belə ki, Azərbaycan vətəndaşları özləri də fərdi qaydada beynəlxalq məhkəməyə müraciət etməli və Ermənistan dövlətindən kompensasiya tələb etməlidirlər. Çünki insanların beynəlxalq konvensiyalarla təsbit edilmiş hüquqları pozulub. İnsanların həyatına, mülkiyyət hüquqlarına təcavüz edilib. Hətta hesab edirəm ki, Ermənistanın cinayətləri ilə bağlı BMT-də müvafiq tribunal yaradılmalıdır, separatçı rejimin rəhbərləri bəşəriyyətə qarşı törətdikləri cinayətə görə BMT tribunalı qarşısında cavab verməlidirlər".

Ə. Nuriyev deyir ki, bunun üçün dağıdılmış şəhər və kəndlərin görüntüləri dünyaya yayılmalıdır. Təcavüzkar dövlətin vəhşiliyini dünya görməli, buna hüquqi qiymət verməlidir: "Biz Dağlıq Qarabağ həqiqətlərini dünyaya çatdırmaqda davam etməliyik. Çünki, müharibə başa çatsa da, biz dəymiş ziyanın ödənilməsi üçün həqiqətləri beynəlxalq təşkilatların diqqətinə çatdırmalı, onların Ermənistana təzyiq göstərməsinə nail olmalıyıq".

Qeyd edək ki, artıq Qarabağın bərpasında bir sıra dost ölkələr - Türkiyə, Pakistan, İsrail, Macarıstan, İran, İtaliya, Böyük Britaniya və s. iştirak etmək arzusunda olduqlarını bildiriblər. Azərbaycan dövləti də dost ölkələrlə bu sahədə əməkdaşlıq etmək niyyətini açıqlayıb. Lakin hazırda Qarabağın yenidən qurulmasında daha çox Türkiyədən olan şirkətlərin fəaliyyəti gözə dəyir və qardaş ölkənin şirkətləri işğaldan azad edilmiş ərazilərin bərpasında yaxından iştirak edirlər.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Ayaz Müseyibov isə deyir ki, hazırda işğaldan azad olunmuş torpaqların ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində tədbirlər ən qabaqcıl yanaşmalar nəzərə alınmaqla planlı formada aparılır: "Məhz buna görə də artıq beynəlxalq maliyyə qurumlarının və bununla birlikdə, qlobal miqyasda güclü iqtisadi resurslara malik təşkilatların və ölkələrin bu istiqamətdə icra ediləcək layihələrə iştirak etməyə maraqlı olmaları müxtəlif formalı platformalarda səsləndirilməkdədir. Bununla belə, müvafiq istiqamətdə beynəlxalq təcrübəni də nəzərə alsaq müxtəlif təşəbbüslər realizasiya oluna bilər. Qeyd edim ki, bu istiqamətdə müvafiq təcrübələr ayrı-ayrı dövrlərdə İraq, Suriya, Əfqanıstan, Balkan yarımadasında və digər keçmiş münaqişə zonalarında tətbiq edilmişdir. İlk növbədə, investisiyaların cəlb olunması məqsədi ilə beynəlxalq miqyaslı investisiya forumu keçirilə, hazırlanmış vahid inkişaf konsepsiyaları müvafiq istiqamətdə ixtisaslaşmış qurumlara təqdim oluna bilər. Həmçinin, layihələrə cəlb oluna biləcək istər kommersiya, istərsə də qeyri-hökumət və beynəlxalq təşkilatların siyahısı, fəaliyyət istiqamətləri, potensial yatırım imkanları, hansı sahələrə hansı təşkilatın cəlb oluna biləcəyi və s. kimi məsələlər detallı təhlil olunmaqla şərti formada desək "maliyyələşdirmə və investisiya xəritələri" hazırlana bilər. Eyni zamanda reinteqrasiya prosesləri ilə bağlı mühüm əhəmiyyət kəsb edən imkanlardan biri də investorların inamının və məlumatlara çıxışının artırılması məqsədi ilə mövcud lokal vəziyyətin qiymətləndirilməsi və nəticələri inikasiya edən şəffaf, rəqəmsal məlumat bazalarının formalaşdırılması ilə bağlıdır. Göründüyü kimi, müvafiq istiqamətdə tədbirlərin görülməsi üçün kifayət qədər geniş imkanlar və metodoloji yanaşmaların tətbiq edilməsi mümkündür. Bu baxımdan onu da qeyd etməliyəm ki, ən qabaqcıl təcrübələr qlokalizasiya edilməklə işğaldan azad olunmuş torpaqların inkişaf və bərpa prosesləri icra ediləcəkdir".

***Gülayə***

**Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Xüsusi təyinatlılarımız şərti düşməni məhv etdi

***"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən keçirilən taktiki-xüsusi təlimin mövzusu mülki əhali arasında çaxnaşma yaratmağa və təxribat törətməyə hazırlaşan şərti düşmənin təxribat-diversiya qrupunun gizləndikləri binada zərərsizləşdirilməsi olub.***

Müdafiə Nazirliyindən Unikal.org-a verilən məlumata görə, Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin və Türkiyə Silahlı Qüvvələri mənsublarının izlədikləri təlimdə şəxsi heyətin praktiki vərdişləri və binalarda döyüş əməliyyatlarının aparılması bacarıqları yoxlanılıb.

Əldə edilmiş kəşfiyyat məlumatına əsasən təxribatçı qruplar yaşayış məntəqələrinə yaxın ərazidəki tərk edilmiş binada gizləniblər.

Şərti düşmənin təxribat cəhdlərinin qarşısının alınması məqsədilə xüsusi təyinatlı qruplar fərqli istiqamətlərdən və helikopterlərlə terrorçuların gizləndikləri binaya daxil olaraq müxtəlif atəş vasitələrindən istifadə etməklə təxribatçılar zərərsizləşdiriblər.

Təlimin ssenarisinə əsasən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları şərti düşmənin təxribat-diversiya qrupunu zərərsizləşdirmək üçün antiterror əməliyyatları zamanı binalarda yaxın məsafədə döyüş elementlərini yerinə yetiriblər.

Təlimin gedişində antiterror əməliyyatlarının icrası zamanı yaralanan hərbi qulluqçulara çevik şəkildə tibbi yardım göstərilib və yaralıların təxliyyəsi həyata keçirilib.

Şərti düşmənin təxribat cəhdinin qarşısını alan xüsusi təyinatlı qruplar müxtəlif silah nümunələrini ələ keçirib və təxribatçıların bir neçəsini əsir götürüblər.

Beləliklə də, diversiya-təxribat fəaliyyətlərinin qarşısını alan xüsusi təyinatlılarımız təxribatçıları tam tərkibdə zərərsizləşdirməklə təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olublar.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun müşahidəçi və təlimatçı qismində iştirak etdiyi təlimin uğurla başa çatması münasibətilə mükafatlandırma mərasimi keçirilib.

Mərasimdə çıxış edən Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Azərbaycan və Türkiyə Respublikaları arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq Naxçıvanda və Türkiyə Respublikasının Qars şəhərində keçirilmiş döyüş atışlı birgə taktiki təlimlərin hər iki qardaş ölkənin hərbi qüdrətinin nümayişi olduğunu diqqətə çatdırıb. Ulu öndərlərimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" şüarı keçirilən təlimlərdə və hərbi qulluqçularımızın peşəkarlıqlarının artırılmasına xidmət edən kurslarda birliyimizin və bərabərliyimizin ifadəsinə çevrilib. Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri ilə keçirilən taktiki-xüsusi təlimin uğurla başa çatması Türkiyə Respublikasının Sparta və Kayseri şəhərlərində, Naxçıvandakı Dağ Təlim Mərkəzində təşkil edilmiş kurslarda və 44 günlük Vətən müharibəsində qazanılan döyüş təcrübəsinin peşəkarlıqla tətbiq edilməsinin əyani göstəricisidir.

Sonda hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edilib.

# Şəhid zabitimizin oğluna son sözləri: "Daim başınızı dik tutun!"

***"Atam və digər qəhrəmanlarımız Vətən uğrunda şəhid oldular. Onlar Qarabağı erməni tapdağından xilas etdilər. Bu insanların övladları olduğumuz üçün fəxr edirik".***

Bunu Azvision.az -a açıqlamasında şəhid polkovnik-leytenant Mehman Qəmbərovun oğlu Nurlan Qəmbərov deyib.

"Atamla sonuncu dəfə döyüşlər gedən vaxtı danışmışdıq"- deyən Nurlan onu güləriz, mehriban biri kimi xatırlayır:

- Onunla son görüşümüz Beyləqanda oldu. Döyüşlər başlayan ərəfədə evə gəldi. Bizimlə sağollaşıb müharibəyə getdi. Sonuncu dəfə danışanda bizə möhkəm olmağı, hər şeyə hazır olmağımızı və narahat olmamağımızı dedi. Dedi ki, "siz daim başınız dik, alnınız açıq gəzin". Atam 16 yaşından ali hərbi məktəbə qəbul olub. Məktəbi bitirdikdən sonra Azərbaycanın cəbhə bölgələrində 25 il şərəflə xidmət edib. Atamla bağlı xatirələrim çoxdur. O, hər bayramı əsgərlərilə qeyd edərdi, mən də onunla birgə gedərdim. Onun torpağı, Vətəni necə sevdiyinin şahidi olurdum. Atam Ağdamdan idi və Ağdamın azad olunmasını, ora geri qayıtmağı səbirsizliklə gözləyirdi. O, II Qarabağ müharibəsində döyüşə fərəhlə qoşulmuşdu və qəhrəmancasına vuruşaraq, şəhid oldu. Mən və qardaşım Ceyhan onunla hər zaman qürur duyacağıq".



Nurlan 10-cu, qardaşı 4-cü sinifdə oxuyur. Atası onlara hər zaman yeni biliklər öyrənməyi tövsiyə edərdi. Deyərdi ki, daim öz üzərlərində çalışsınlar, yaxşı insan olsunlar. Hansı peşəni seçmələrindən asılı olmayaraq, o sahənin peşəkarına çevrilsinlər. Evin böyük oğlu odluğu üçün, anasının və kiçik qardaşının ona əmanət edildiyini deyən Nurlan atasının tövsiyələrini yerinə yetirməyə çalışır.

II Qarabağ müharibəsinin iştirakçısı, polkovnik-leytenant Mehman Qəmbərov sentyabrın 30-da Füzuli uğrunda gedən döyüşlərdə şəhid olub. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirməsinə görə "Qarabağ" ordeni, "Vətən uğrunda" medalı və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

***Aytən Zəhra***

# "Təlimlər iki qardaş ölkənin hərbi qüdrətinin nümayişidir" - Kərəm Mustafayev

***"Azərbaycan və Türkiyə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq Naxçıvanda və Türkiyənin Qars şəhərində keçirilmiş döyüş atışlı birgə taktiki təlimlər hər iki qardaş ölkənin hərbi qüdrətinin nümayişidir".***

Bunu Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev deyib.

"Ulu öndərlərimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" şüarı keçirilən təlimlərdə və hərbi qulluqçularımızın peşəkarlıqlarının artırılmasına xidmət edən kurslarda birliyimizin və bərabərliyimizin ifadəsinə çevrilib. Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri ilə keçirilən taktiki-xüsusi təlimin uğurla başa çatması Türkiyə Respublikasının Sparta və Kayseri şəhərlərində, Naxçıvandakı Dağ Təlim Mərkəzində təşkil edilmiş kurslarda və 44 günlük Vətən müharibəsində qazanılan döyüş təcrübəsinin peşəkarlıqla tətbiq edilməsinin əyani göstəricisidir", - komandan vurğulayıb.

Qeyd edək ki, "Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən keçirilən taktiki-xüsusi təlim keçirilib. Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin və Türkiyə Silahlı Qüvvələri mənsublarının izlədikləri təlimdə şəxsi heyətin praktiki vərdişləri və binalarda döyüş əməliyyatlarının aparılması bacarıqları yoxlanılıb. Türkiyə Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun müşahidəçi və təlimatçı qismində iştirak etdiyi təlimin uğurla başa çatması münasibətilə mükafatlandırma mərasimi keçirilib.



# Səməndər Vətənini canından artıq sevirdi

***Səməndər Vahid oğlu İsgəndərov Vətən torpaqları uğrunda sinəsini düşmən gülləsinə sipər edəndə ömrünün 24-cü baharını yaşayırdı. Bu gənc yaşında onun ölümü millətinə başucalığı oldu. Səməndər lap uşaqlıqdan ürəkdən doğma Azərbaycanına bağlanmışdı. Məqamı gələndə onun yolunda canından keçməyi böyük şərəf bilirdi və bunu özünə həyat amalı seçmişdi. İkinci Qarabağ müharibəsində arzusuna qovuşmağa milyonların qəlbinə köç edən Səməndər əbədiyaşar bir ömür qazandı. Dövlət də öz Vətən məhəbbətli qəhrəman oğlunu "Vətən uğrunda" medalı ilə təltif etdi.***

Doğma Masallı rayonunun Sərçuvar kəndində mehriban, yüksək əxlaqi keyfiyyətləri ilə el-obanın dərin hörmətini qazanan Səməndər İsgəndərov 2017-ci ildə həqiqi hərbi xidmətə çağırılır. Qaynar bölgədə əsgəri borcunu vicdanla yerinə yetirir. Vətənə bağlılığı, torpağa sevgisi burada da ona böyük hörmət gətirir.



Əsgərlikdən sonra gözəl həyat naminə təmiz, ulu duyğularla yaşayan Səməndərin Vətənimizə xəyanət edən erməni dığalarına nifrəti azalmır. Yağı düşməndən qisas alacağı günə həmişə hazır durur. Odur ki, 27 sentyabrda Vətən müharibəsi başlanan günü könüllü olaraq silaha sarılıb torpaq naminə düşmənlə savaşa qalxır. Ağır bir döyüş yolu keçən igid əsgər bir qayda olaraq şəxsi rəşadət və şücaət göstərməklə düşmənin çoxlu sayda canlı qüvvəsini, texnikasını məhv edir. Vətənin müqəddəsliyinə tapınmaqla azad olunan hər qarış torpaq uğrunda sözün əsl mənasında can qoyur. Həm də neçə-neçə döyüşdə yaralı çiyin yoldaşlarını mühasirədən çıxarıb onları ikinci dəfə həyata qaytarır. Bir sözlə, Vətənə məhəbbət, sədaqət ruhu Səməndəri yalnız qələbəyə doğru aparır. Ağır müharibə meydanlarında onun mərdliyi, qorxmazlığı əsgər yoldaşlarına da qol-qanad verir. Təəssüf ki, Vətən sevdalı igid Şuşa döyüşlərində düşmən gülləsindən xilas ola bilmir. Cavan ömrünü torpağa verməklə bu dünyadan getsə də, xalqına, millətinə yadigar qoyduğu əzəldən sevdalandığı Vətən boyda bir məhəbbəti olur.. .

***Zəfər Orucoğlu, AJB üzvü***

# Ailə quran cütlüklər nikah müqaviləsi bağlamalıdırmı? - Ekspert şərhi



***Bakı, 5 avqust - BiznesMedia. Nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən sazişdir. Ər-arvad nikah müqaviləsində bir-birinin qarşılıqlı saxlanılması, bir-birilərinin gəlirlərində və xərclərində iştirak qaydaları ilə bağlı hüquq və vəzifələri, nikah pozulduqda hər birinə düşəcək əmlakı və ər-arvadın əmlak münasibətlərinə dair hər hansı başqa müddəanı müəyyənləşdirmək hüququna malikdirlər.***

Ümumilikdə statistik məlumatlara nəzər salsaq, nikah müqavilələrində artım müşahidə edə bilərik. Ancaq bununla belə, o qədər də qənaətbəxş rəqəmlər deyil. Belə ki, Dövlət Statistika Komitəsinin yaydığı hesabata əsasən 2019-cu ildə 63869 nikah qeydə alınsa da, onlardan yalnız 129-da nikah müqaviləsi, 2020-ci ildə 35348 nikahdan, 151-də nikah müqaviləsi, 2021-ci ilin ilk üç ayında isə 10334 nikahdan yalnız 28-də nikah müqaviləsi imzalanıb.

Qeyd edək ki, nikah müqaviləsi yalnız yazılı formada bağlanılır və notarial qaydada təsdiq olunur. Nikah müqaviləsi bağlandıqdan sonra heç bir tərəf onun icrasından boyun qaçıra bilməz. Lakin nikah müqaviləsi tərəflərin razılığı ilə istənilən dövrdə dəyişdirilə, yaxud ləğv edilə bilər və bu razılıq yazılı formada olmalıdır. Nikah müqaviləsinə xitam verildiyi halda, ər-arvadın müqavilədə nəzərdə tutulan hüquq və vəzifələrinə də xitam verilir.

### Bəs nikah müqaviləsi niyə bağlanmalıdır?

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin baş məsləhətçisi Rahil Süleymanzadə "Report"a açıqlamasında bildirib ki, nikah müqaviləsi nikahın bağlanmasının dövlət qeydiyyatına qədər, eləcə də nikah dövründə istənilən vaxt bağlana bilər: "Bu müqavilə ilə ər-arvadın birgə mülkiyyəti qanunla müəyyən olunan rejimi dəyişərək ümumi əmlaka, onun ayrı-ayrı növlərinə və ər-arvadın hər birinin əmlakına birgə, paylı və ayrıca mülkiyyət rejimi tətbiq edə bilərlər".

### Nikah müqaviləsinin bağlanılması məcburidirmi?

Vəkillər Kollegiyasının üzvü, hüquqşünas Rəşad Əliyev "Report"a açıqlamasında deyib ki, Azərbaycanda nikah müqaviləsinin bağlanması məcburi xarakter daşımır və qanunvericilikdə tövsiyə xarakterlidir: "Yeni ailə quranlar əvvəlcədən nikah müqaviləsi bağlamağı mental olaraq qəbul etmir və bunu nikahın daimi olacağına şübhə ilə yanaşmaq tərzində qəbul edirlər. Hətta bir tərəf bu istəkdə olsa belə qarşı tərəfə deməyə çəkinir ki, gələcəkdə baş verməsi ehtimal edilən boşanmanın yaratdığı nəticələri düşündüyü üçün onu etibarsız adam hesab edərlər. Halbuki nikah müqaviləsinin bağlanması tərəfləri gələcəkdə baş verəcək və bəzən illərlə məhkəmələrdə davam edən mübahisələrin yaranmasından sığortalayır və tərəflərin gələcək sosial təminatının qarantı kimi çıxış edir.

### Nikah müqaviləsi hansı halda pozula bilər?

Nikah müqaviləsi ər-arvadın razılığı ilə istənilən vaxt yazılı formada və notariat qaydasında dəyişdirilə və pozula bilər. Müqavilənin icrasından birtərəfli qaydada imtina etməyə yol verilmir. Ərin və yaxud arvadın tələbinə əsasən məhkəmənin qətnaməsi ilə nikah müqaviləsi Mülki Məcəllədə müqavilələrin dəyişdirilməsi və ya pozulması üçün nəzərdə tutulmuş əsaslarla dəyişdirilə bilər. Nikah müqaviləsi pozulduqdan sonrakı dövr üçün isə nəzərdə tutulan vəzifələr istisna olmaqla nikaha xitam verilməsi anından nikah müqaviləsinə də xitam verilmiş hesab edilir. Nikah müqaviləsi Mülki Məcəllə ilə əqdlərin etibarsız hesab edilməsi üçün nəzərdə tutulmuş əsaslarla məhkəmə tərəfindən tamamilə və ya qismən etibarsız sayıla bilər. Bir halda ki, həmin müqavilə bağlanarkən aşkar surətdə digər tərəfin hüquqları pozulmuş olsun.

# Dövlət Məşğulluq Agentliyi ilə BP şirkəti arasında memorandum imzalanıb



***Dövlət Məşğulluq Agentliyi ilə BP şirkəti arasında gələcək birgə layihələrin icrasını nəzərdə tutan Anlaşma Memorandumu imzalanıb.***

Sənədi Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli və BP şirkətinin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli imzalayıb.

M.Abbasbəyli məşğulluq sahəsində aparılan islahatları, pandemiya və postmüharibə dövründə sosial dəstək paketləri çərçivəsində məşğulluq sahəsində proqramları qeyd edib. O, aktiv məşğulluq proqramlarının təşkili sahəsində Dövlət Məşğulluq Agentliyi ilə BP şirkəti arasında əlaqələrin önəmini və yeni imzalanan əməkdaşlıq sənədi ilə bu əlaqələrin daha da güclənəcəyini vurğulayıb.

B.Aslanbəyli BP-nin Azərbaycandakı fəaliyyətindən, həyata keçirdiyi geniş sosial sərmayə proqramlarından bəhs edib, o cümlədən yerli potensialın və sahibkarlığın inkişafına yönəlmiş sosial layihələri haqqında məlumat verib.

Görüşdə Anlaşma Memorandumu üzrə reallaşdırılması nəzərdə tutulan, gənc sahibkarlara dəstək məqsədi daşıyacaq "Kənd yerlərində gənc sahibkarlara dəstək" təşəbbüsündən bəhs olunub. Eləcə də əməkdaşlıq sənədi əsasında birgə fəaliyyət müstəvisində icra olunacaq məşğulluq layihələrinə dair fikir mübadiləsi aparılıb.

# Fond bazarlarının əsas indeks göstəriciləri

***Avqustun 4-də Amerika fond bazarında Dow Jones indeksi 0,92% - 34,792.67 bəndədək, S&P 500 indeksi 0,46% - 4,402.66 bəndədək enib, Nasdaq indeksi isə 0,13% - 14,780.54 bəndədək yüksəlib.***

Avropa fond bazarlarında avqustun 4-də FTSE 100 indeksi 0,26% -7,123.86 bəndədək, Fransanın CAC-40 indeksi 0,33% - 6,746.23 bəndədək, Almaniyanın DAX indeksi isə 0,88% - 15,692.13 bəndədək yüksəlib.

COMEX-də qızılın bir unsiyasının qiyməti 0,06% azalaraq 1 813,4 dollara bərabər olub.

Dünya bazarında avronun dollara qarşı məzənnəsi dəyişməyib və 1,1837 dollara bərabər olub.

# Daşınmaz əmlakla bağlı kreditlərin həcmində yeni rekord qeydə alınıb

***2021-ci ilin iyulun 1-nə Azərbaycanda daşınmaz əmlakın tikintisinə və alınmasına (ipoteka krediti daxil olmaqla) kredit qoyuluşlarının həcmi 2,266 mlrd. manat təşkil edib.***

Azərbaycan Mərkəzi Bankının məlumatına görə, bu göstərici indiyə qədər qeydə alınmış ən yüksək göstəricidir. Son bir ayda sözügedən kreditlərin 2,6%, son bir ildə isə 15,2% artıb. Daşınmaz əmlakın tikintisinə və alınmasına yönələn kredit qoyuluşları ümumi ölkə üzrə kredit qoyuluşlarının 14,9%-ni təşkil edib.

Qeyd edək ki, 2021-ci ilin avqustun 3-nə verimiş ipoteka kreditlərinin məbləği 1 872 135 736 manat təşkil edib.

# "Bayer" bu şirkət üçün 2 milyard dollar ödəyib

***"Bayer" şirkəti ABŞ-də yerləşən "Vividion Therapeutics" bio-dərmanlar şirkətini yeni müalicələr kəşf etmək və dərman tədqiqatının dəyərini qaldırmaq üçün 2 milyard dollara qədər satın alıb.***

Bu barədə şirkətdən məlumat verilib.

Kənd təsərrüfatı və əczaçılıq qrupunun açıqlamasına görə, üçüncü rüb ərzində bağlanması gözlənilən müqaviləyə 1.5 milyard dollarlıq əvvəlcədən ödəmə və 500 milyon dollara qədər mümkün mərhələ ödəmələri daxildir.

# Daşınmaz əmlakla bağlı kreditlərin həcmində yeni rekord qeydə alınıb

***2021-ci ilin iyulun 1-nə Azərbaycanda daşınmaz əmlakın tikintisinə və alınmasına (ipoteka krediti daxil olmaqla) kredit qoyuluşlarının həcmi 2,266 mlrd. manat təşkil edib.***

Azərbaycan Mərkəzi Bankının məlumatına görə, bu göstərici indiyə qədər qeydə alınmış ən yüksək göstəricidir. Son bir ayda sözügedən kreditlərin 2,6%, son bir ildə isə 15,2% artıb. Daşınmaz əmlakın tikintisinə və alınmasına yönələn kredit qoyuluşları ümumi ölkə üzrə kredit qoyuluşlarının 14,9%-ni təşkil edib.

Qeyd edək ki, 2021-ci ilin avqustun 3-nə verimiş ipoteka kreditlərinin məbləği 1 872 135 736 manat təşkil edib.

# Sığortaçılar Assosiasiyasında yeni komitə yaradılır

***Azərbaycan Sığortaçılar Assosiasiyasında İT (informasiya texnologiyaları) komitəsinin yaradılması ilə bağlı qərar verilib.***

ASA-dan verilən məlumata görə, yeni komitənin yaradılması ilə bağlı müvafiq qərar Assosiasiyanın Müşahidə Şurasının cari ilin 2-ci rübünün yekunlarına həsr olunmuş iclasında müzakirə olunaraq qəbul edilib.

Məlumatda bildirilir ki, yeni komitənin yaradılmasında başlıca məqsəd yerli sığorta bazarında fəaliyyət göstərən şirkətlərin informasiya texnologiyaları sahəsindəki ümumi problemlərinin daha çevik və sistemli şəkildə həll edilməsindən, eyni zamanda şirkətlərdəki İT istiqamətinin inkişafının stimullaşdırılmasından ibarətdir. Məlumata görə, komitənin üzv heyətinin formalaşdırılması məqsədi ilə sığorta şirkətlərinə artıq müraciət də ünvanlanıb.

Qeyd edək ki, bununla da Azərbaycan Sığortaçılar Assosiasiyasındakı komitələrin sayı 4-ə çatıb.

# Paşinyan yenə Putinlə görüşə gedir - 3 tərəfli sənədlə bağlı gəlişmə

***Erməni nəşri Nikolun “payız planları”ndan yazıb; başı daşdan-daşa dəyən baş nazir xilas yolunu Qərbdə və şimalda yox, Bakıda və Ankarada axtarmalı olacaq...***

Ankarada Türkiyə, Azərbaycan və Gürcüstan xüsusi təyinatlı qüvvələrinin birgə “Qafqaz qartalı” hərbi təlimləri başlayıb. Avqustun 8-də yekunlaşacaq təlimə Ukrayna da müşahidəçi qismində qatılıb. Xəbəri “Türkiye” qəzeti yayıb.

Məlumatlara görə, təlimlərdə dost ölkələrin xüsusi təyinatlı qüvvələri arasında əməkdaşlıq və koordinasiya inkişaf etdiriləcək. Qarşılıqlı təcrübə və məlumat mübadiləsi ilə birlikdə ortaq əməliyyatların keçirilməsi də məşq ediləcək. Bura hədəflərin məhv edilməsi, girovların azad edilməsi, yaralıların təxliyəsi və digər vəzifələrin yerinə yetirilməsi də daxildir. Təlimlərdə Azərbaycan Ordusunun xüsusi təyinatlıları, o cümlədən Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları iştirak edir.

Ermənistanın Azərbaycanla sərhəddə atəşkəsi tez-tez pozduğu, Qarabağda erməni qanunsuz silahlıların hələ də qaldığı vaxtda beləcə Türkiyə bir daha Azərbaycana öz dəstəyini nümayiş etdirir. Xatırladaq ki, ilin əvvəlindən bəri Azərbaycan və Türkiyə silahlı qüvvələri çoxsaylı birgə hərbi təlimlər keçirib. İndiki təlimlər isə “Türkiye” qəzetinin yazdığı kimi, həm də Ermənistanın sərhəddə təxribatlara əl atdığı bir vaxtda Azərbaycana növbəti dəfə dəstək nümayiş etdirmək məqsədi daşıyır.

Xüsusi təyinatlılardan söz düşərkən təbii ki, dərhal Şuşanın erməni işğalından azad edilmə əməliyyatı yada düşür. Ordumuz düşmənin qorxulu röyası kimi yadda qalan bu möhtəşəm əməliyyatla, bütövlükdə 44 gündə torpaqlarımızı azad eləməklə tarix yazdı, erməni işğalçı ordusunun “məğlubedilməzlik” mifini darmadağın elədi. Erməni faşizminin “fəqərə sütunu”nu qırdı. Terror dövləti olan Ermənistanı hələ uzun müddət özünə gələ bilməyəcək ağır, böhranlı duruma saldı.

Türkiyə ilə növbəti birgə təlimlər bu xüsusda Ermənistana və onu təzədən ayaq üstə qoymağa çalışan havadarlarına, xam xəyallarla yaşayan erməni revanşist qüvvələrə daha bir xəbərdarlıq mesajı, güc nümayişidir. Rəsmi İrəvanın Bakı və Ankara ilə sülh müqavilələri imzalamaqdan savayı yolunun qalmadığı haqda ona aydın ismarışdır.

Bəs bu qəbildən mesaj və ismarışlar İrəvanda, nəhayət, düzgün qiymətləndiriləcəkmi? Məğlub ölkənin rəhbərliyi böyük sülh müqaviləsinə alternativin olmadığına nə vaxt əminlik hasil edəcək?

Bu arada Ermənistanın “Qraparak” qəzeti öz məlumatlı mənbələrinə istinadən yazıb ki, təzəcə baş nazir təyin edilən Nikol Paşinyan böyük ehtimalla, “yeni statusda” ilk səfərini Rusiyaya edəcək. Qeyd edək ki, Paşinyanı baş nazir təyinatı ilə bağlı ilk təbrik edənlərdən biri Rusiya prezidenti Vladimir Putin olub.

“Bu səfərin yeni 3 tərəfli danışıqların başlanğıcı olacağı istisna edilmir”, - “Qraparak” yazıb.

Onu da qeyd edək ki, keçən həftə Rusiya XİN-in rəsmi sözçüsü Mariya Zaxarova Moskvadakı brifinqdə rəsmi Kremlin yeni 3 tərəfli bir sənəd üzərində işlədiyi barədə anons eləmişdi. Bunun Azərbaycanla Ermənistan arasında sərhədlərin demarkasiyası və demilitasiyası ilə bağlı olduğu da istisna olunmur.

Erməni nəşrinin mənbələri həmçinin bildirir ki, payızda Nikol Paşinyan bir növ “dünya turu”na çıxmaq niyyətindədir, lakin bu səfərlərin əsas hissəsinin məqsədi, sadəcə, erməni diaspor mərkəzlərini ziyarət etmək və diaspor erməniləri ilə görüşmək olacaq.

“Yenidən hakimiyyətin başına keçən Paşinyan üçün bu dəfə əvvəlki illərdən çətin olacaq”. Belə bir ehtimalı isə politoloq Elxan Şahinoğlu irəli sürüb. “Çünki keçən parlamentdə müxalifətin əsas hissəsi ilə dialoq mümkün idi, Paşinyan onları tez-tez iqamətgahına dəvət edir, fikir mübadiləsi aparırdı. ”Qarabağ klanı”nın timsalında indiki müxalifət isə Paşinyana qarşı barışmaz mövqedən çıxış edir, ilk gündən parlamentin işini iflic etməyə çalışıblar. Sözəbaxan müxalifət parlamentdən kənarda qaldı. Qarşılıqlı ittihamlar, söyüşlər hələ irəlidədir”, - deyə politoloq qeyd edib.

O, Nikol Paşinyanın xarici siyasət və təhlükəsizlik məsələlərində naşı olduğunu xatırladaraq deyib: “Məhz Paşinyanın Qarabağla bağlı təxribatçı açıqlamaları müharibəni yaxınlaşdırdı və Azərbaycanın qələbəsini təmin etdi. Paşinyan bu müddətdə Moskvanın əsəbləri ilə oynadı, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının erməni baş katibini həbs etməklə qurumun imicinə zərbə vurdu”.

Elxan Şahinoğluna görə, Nikol Paşinyan daxili siyasətə daha çox maraq göstərir: “Paşinyanın nəyi də olmasa onun adı eks-prezidentlər Robert Köçəryan və Serj Sərkisyandan fərqli olaraq korrupsiya qalmaqallarında hallanmayıb. O, islahatlar aparmağa meyllidir. Amma orası da var ki, müharibədə ağır məğlubiyyətin və Ermənistanın verdiyi itkilərin yerini doldurmaq ona çətin olacaq, ölkəni tərk edənlərin - itirilən işçi qüvvəsinin sayı da artır. Rusiya Paşinyana havayı pul verəsi deyil, Qərbin pulları isə ancaq hələ ki vədlərdədir”.

Politoloq inanır ki, Paşinyan Ermənistanın iki böyük qonşusu - Türkiyə və Azərbaycanla normal münasibətlərə malik olması reallığını anlayır. “Müharibədən sonra bu mövzuda onun müəyyən etirafları da oldu. Fərqli dövlətlərə ”gəlin bizi Azərbaycandan qoruyun” çağırışlarının nəticə vermədiyini həm Paşinyanın özü, həm də erməni cəmiyyəti əyani gördü. Paşinyan Azərbaycanla sülh sazişi imzalamadan və qonşusuyla sərhədləri müəyyənləşdirmədən bölgədəki gərginliyin azalmayacağını da anlamamış deyil. Amma bunları anlamasına rəğmən, o, erməni beyinlərinə hakim olan “türk düşmənçiliyi” stereotipindən qurtulmağa tələsmir. Bundan qurtulmadan isə bölgədəki gərginliyi azaltmaq və islahatlarda nəyəsə nail olmaq mümkün deyil”, - deyə o vurğulayıb.

Ancaq Nikol Paşinyan Bakı və Ankara ilə münasibətləri qurmağa tələsməli olacaq. Buna məcburdur. Çünki hər şeydən öncə söhbət Ermənistan adlı simvolik dövlətin dünyanın siyasi xəritəsində qalıb-qalmamasından gedir...

# İranın Ermənistan sevgisinə durbin baxışı-rəsmi Tehran səfirinə nə deyəcək? - TƏHLİL



***Təəssüflər olsun kı, 44 günlük müharibədən sonra regionda Azərbaycanın yaratdığı sabitliyə istiqamətlənmiş, yeni vəziyyətə xələl gətirmək istəyən qüvvələrin son zamanlar sayı artmaqda davam etməkdədir. Postmünaqişə dövrü üçün xarakterik olan tərəflərin barışdırılması, sülhün möhkəmləndirilməsi, qarşılıqlı dialoq ilə ən müxtəlif məsələlərin həllini tapması vacib olduğu dövrdə, bəzi qüvvələr, hələ də, suların bulandırılması ilə məşqul olmaqdadırlar.***

Hazırda sərhədlərin demarkasiyası və delimitasiyasının, nəqliyyat - kommunikasiya xətlərinin açılmasının prioritet olduğu dövrdə Ermənistanın apardığı dağıdıcı siyasəti tənqid etmək, İrəvanı Üçtərəfli Bəyanatın bəndlərini yerinə yetirməyə dəvət etmək beynəlxalq ictimaiyyət, ələlxüsus qonşu dövlətlər üçün prioritet təşkil etməlidir.

Lakin, görünən odur kı, bəzi qonşu dövlətlərdəki müəyyən qruplar Cənubi Qafqazda yaranmış sülhün və tərəqqinin möhkəmləndirilməsinə istiqamətlənən yeni proseslərdən narazıdırlar. Əgər, bu gün Ermənistanı müdafiə edən bəzi Qərb dairələri bölgədəki yeni proseslərdə iştirak etmədiklərinə görə Azərbaycan və Ermənistan arasında problemlərin qalmasında maraqlıdırlarsa, qonşu dövlətlər əksinə, məntiqlə baxıldıqda,Qarabağ və sərhədlər ərtafında bütün problemlərin tez bir zamanda həll edilməsinə tərəfdar olmalıdırlar.

Ermənistandan fərqli olaraq məhz Azərbaycanın yaratdığı yeni geosiyasi vəziyyət, regional inteqrasiya və əməkdaşlıq üçün zəmin yaradır. Təəsüflər olsun kı, hazırda regionun sabit gələcəyi üçün Azərbaycan tərəfinin real addımlar atdığı bir vaxtda İrəvan postmünaqişə dövrünün münaqişə dövrü ilə əvəzlənməsi üçün bütün imkanlarından istifadə etməkdədir.

Son vaxtlar Kəlbəcərin və Naxçıvan MR-nın Ermənistanla sərhədində erməni ordusunun atəşgəsi pozmasının şahidiyik. Çox təəssüflə qeyd edilməlidir ki, bəzi dövlətlərin Ermənistandakı səfirləri İrəvanın apardığı təxribatçı siyasətə dəstək olmaqdadırlar. Fransanın Ermənistandakı səfirinin absurd bəyanatı, ABŞ-ın Ermənistandakı səfirinin mütəmadi olaraq Azərbaycanla sərhədyanı ərazilərə səfər etməsinin ardınca, bu dəfə pis mənada seçilən İranın İrəvandakı səfiri oldu. ABŞ və Fransadan fərqli olaraq postmünaqişə dövründə bölgədəki proseslərdə iştirak etmək imkanına malik olan və altılıq kimi Tehranın özü üçün də lazımlı platformaya dəvət alan İran İslam Respublikasındakı müəyyən qruplar, deyəsən, Cənubi Qafqazdakı yeni durumla barışmaqda əziyyət çəkir.

Avqustun əvvəllində İranın Ermənistandakı səfiri Abbas Bədəxşan Zohuri, bugünlərdə atışmaların getdiyi Ermənistanın Azərbaycanla sərhədinə heç bir zərurət olmadan səfər etdi. Azərbaycan torpaqlarını 30 il ərzində işğal edən və bugünlərdə də türk - müsəlman xalqına qarşı düşmənçilik edən Ermənistan ordusunun generallarının müşayəti ilə Qeqarkunik bölgəsinə səfər edən iranlı səfir Azərbaycan və Ermənistan sərhədində baş verənlərlə bağlı narahatlığını ifadə edib və son toqquşmalarda ölən hərbçilərin ailələrinə başsağlığı verib.

Təbii ki, səfirin bu addımı Azərbaycan ictimaiyyətinin ciddi etirazına səbəb olub. Zohurinin tarixi Azərbaycan torpaqlarında duraraq durbinlə bizim sərhəddəki ərazilərə baxması, onun ölən ermənilərin ailələrinə başsağlığı verməsi Tehran tərəfindən aydınlaşdırılası məsələdir.

Niyə son 30 il ərzində İranın Azərbaycandakı səfirləri Ermənistanın sərhədimizi pozmasına görə həmin bölgələrə səfər etmədilər? Niyə məscidlərdə donuz saxlayan və müsəlman dövlətinin torpaqlarını işğal edən ermənilərə İslam Respublikası tərəfindən bir dəfə də çağırışlar edilmədi?

Əvəzində isə, torpaqların işğaldan azad edilməsindən sonrakı dövrdə İranın ayrı-ayrı dövlət xadimləri Azərbaycan və Ermənistan arasında sərhəddəki gərginliklər fonunda ”sərhədlərin dəyişdirilməsinin yolverilməzliyi” haqqında ultimatum tipli bəyanatlar səsləndirməkdədirlər. 2020-ci ilin noyabrına qədər 30 il ərzində Azərbaycan sərhədlərinin zorla Ermənistan tərəfindən dəyişdirilməsinə göz yuman İrandakı bəzi dairələr, bu gün, Bakının beynəlxalq hüquqa söykənən sərhədlərin demarkasiyası, delimitasiyası istəklərindən narahatdırlar.

Sonda qeyd edim ki, özünü Azərbaycanın dostu və qardaşı adlandıran və bu illər ərzində doğrudan da, Azərbaycandan əsl dostluq və qardaşlıq görən Tehran, ölkə daxilində müəyyən qrupları bu kimi zərərverici əməllərdən çəkindirməlidir. Azərbaycan və İran arasında münasibətlər dərin köklərə malikdir və tərəfləri bir-biri ilə təkcə coğrafi qonşuluq deyil, daha dərin və geniş dəyərlər bağlayır. Müsəlmanlara qarşı tarixən nifrət hissi bəsləyən, Azərbaycana qarşı hələ də işğalçılıq planları olan Ermənistan tərəfindən bizim əsgərlərimizə durbinlə baxmaq ikitərəfli əlaqələrə xələl gətirir.

***Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov***

# 33 vida, 11-i startı gözləyir - Tokio-2020-də




***Azərbaycan millisinin daha iki idmançısı Tokio-2020 Yay Olimpiya Oyunlarında çıxışını başa vurub.***

Apasport.az saytının məlumatına görə, bu gün mübarizəyə qoşulan təmsilçilərimiz yarışla erkən vidalaşıb.

Karateçimiz Firdovsi Fərzəliyev qrupdan çıxa bilməyib. O, keçirdiyi dörd qarşılaşmadan yalnız birində qələbə qazanıb və üç məğlubiyyət alıb.

Sərbəst güləşçimiz Turan Bayramov 1/8 final səddini adlasa da, 1/4 finalda uduzub. Onu məğlub edən rəqibi isə yarımfinalda dayandığından təmsilçimiz Olimpiadada medal şansını itirib.

Bununla da Olimpiadaya qatılan idmançı heyətindən mübarizəni dayandıranların sayı 33-ə çatıb. Onların qazancı üç bürünc medal olub. Təmsilçilərimizdən 11-i startı gözləyir.

Qeyd edək ki, yığmamız Olimpiadaya 44 idmançı ilə qatılıb.

1. Kəramət Hüseynov (cüdo, 60 kq) - 1/8 finalda uduzub
2. Aişə Qurbanlı (cüdo, 48 kq) - 1/16 finalda uduzub
3. Elçin Əsədov (velosiped idmanı, şosse velosipedi) - finişə çata bilməyib
4. Maksim Şemberev (üzgüçülük, 400 m qarışıq) - 26-cı yer
5. Məryəm Şeyxəlizadəxangah (üzgüçülük, 100 m batterflyay) - 30-cu yer
6. Tayfur Əliyev (boks, 57 kq) - 1/16 finalda uduzub
7. Lorenzo Sotomayor (boks, 69 kq) - 1/16 finalda uduzub
8. İvan Tixonov (idman gimnastikası, kişilər çoxnövçülük) - 45-ci yer
9. Marina Nekrasova (idman gimnastikası, qadınlar çoxnövçülük) - 70-ci yer
10. Orxan Səfərov (cüdo, 66 kq) - 1/16 finalda uduzub
11. Emin Cəfərov (stend atıcılığı, skit) -26-cı yer
12. Anna Başta (qılıncoynatma, sablya) - 1/8 finalda uduzub
13. Fəridə Əzizova (taekvondo, 67 kq) - 1/8 finalda uduzub
14. Milad Beiqi Harçeqani (taekvondo, 80 kq) - 1/4 finalda uduzub
15. Rostislav Pevtsov (triatlon) - 41-ci yer
16. Rüstəm Orucov (cüdo, 73 kq) - 5-ci yer
17. Murad Fətiyev (cüdo, 81 kq) - 1/8 finalda uduzdu
18. Məmmədəli Mehdiyev (cüdo, 90 kq) - 1/8 finalda uduzub
19. Edi Reski Dviçahyo (badminton) - qrupda qalıb
20. Məhəmməd Abdullayev (boks, +91 kq) - 1/8 finalda uduzub
21. Zelim Kotsoyev (cüdo, 100 kq) - 1/8 finalda uduzub
22. Uşanqi Kokauri (cüdo, +100 kq) - 1/8 finalda uduzub
23. İrina Kindzerska (cüdo, +78 kq) - bürünc medal qazanıb
24. Cavid Çələbiyev (boks, 63 kq) - 1/8 finala uduzub
25. Anna Skidan (atletika, çəkicatma) - 16-cı yer
26. Alfonso Dominqes (boks, 81 kq) - bürünc medal qazanıb
27. Ruslan Lunyov (güllə atıcılığı) - kiçikçaplı tapançadan atəşaçmada 10 m məsafədən 574 xalla 20-ci yer; 25 m məsafədən 567 xalla 21-ci yer
28. Elis Manolova (qadın güləşi, 68 kq) - təsəlliverici qarşılaşmada uduzub
29. Rafiq Hüseynov (yunan-Roma güləşi, 77 kq) - bürünc medal qazanıb
30. Nazim Babayev (atletika, üç təkanla tullanma) - 15-ci yer
31. İslam Abbasov (yunan-Roma güləşi, 87 kq) - 1/8 finalda uduzub
32. Turan Bayramov (sərbəst güləş, 74 kq) - 1/4 finalda uduzub
33. Firdovsi Fərzəliyev (karate, 67 kq) - qrupda mübarizəni dayandırıb
34. Hacı Əliyev (sərbəst güləş, 65 kq)
35. Yelizaveta Luzan, Darya Sorokina, Nərminə Səmədova, Ləman Əlimuradova, Zeynəb Hümmətova (bədii gimnastika, qrup çoxnövçülük)
36. Zöhrə Ağamirova (bədii gimnastika, çoxnövçülük)
37. Mariya Stadnik (qadın güləşi, 50 kq)
38. Şərif Şərifov (sərbəst güləş, 97 kq)
39. Rafael Ağayev (karate, 75 kq)
40. İrina Zaretska (karate, +61 kq)

# "Karyeramda yeni səhifə başlayır" - Cavid İmamverdiyev



***"Azərbaycan futbolunda Gəncənin xüsusi yeri var. Bu mənada "Kəpəz" futbolumuzun göz bəbəyi, ad qoymuş bir klubdur".***

Apasport.az saytının məlumatına görə, bunu "Kəpəz"in yeni transferi Cavid İmamverdiyev deyib.

Azərbaycan millisinin sabiq futbolçusu Gəncə klubuna keçidi ilə bağlı mətbuat xidmətinə açıqlama verib. Yarımmüdafiəçi I divizionda oynayan komandaya uğur qazanmaq üçün gəldiyini bildirib: "Sarı-göylər"in aşağı dəstədə oynaması qəbuledilməzdir. "Kəpəz" elitada çıxış etməlidir. İnşallah, bunun reallaşması üçün çalışacağıq, elə ona görə də burdayıq. Komandanı əvvəlki vaxtlarına qaytarmalıyıq. Əlimizdən nə gəlirsə, onun artığını edib kollektivin ənənəsini bərpa edəcəyik. Düşünmürəm ki, Gəncə klubuna keçməklə geri addım atmışam. Əksinə, karyeramda yeni səhifə başlayır. İnanıram ki, burada növbəti uğurumu qazanacağam. "Kəpəz"də böyük futbolçular oynayıb. Mən də bura vaxt keçirməyə gəlməmişəm. Adımı komandanın tarixinə yazdırmaq istəyirəm. Çoxsaylı azarkeşlərimizin də dəstəyi ilə məqsədimizə çatacağıq. Mənə inanan, etimad göstərən klub rəhbərliyinə, baş məşqçimiz Yaşar Vahabzadəyə minnətdaram".

# Messinin milyonluq kolleksiyası




***Argentina millisinin kapitanı Lionel Messi rəqəmsal sənət kolleksiyasına sahib olacaq.***

Bu barədə "Ethernity Chain" platforması məlumat yayıb. "Non Fungible Token" (NFT) adlanan kolleksiyada Messiverse adı altında 4 sənət əsəri yer alacaq. Hələlik onlardan 3-ü təqdim olunub. Son əsər isə kolleksiyanın nümayiş olunacağı gün - avqustun 20-də göstəriləcək. "Gələcəyin adamı" adlanan əsərin biri Messinin təsviridir və robot görünüşünə malikdir. Argentinalının bütün sənət əsərlərinin müəllifi "BossLogic" ləqəbi ilə tanınan avstraliyalı bir rəssamdır.

Bu sənət əsərləri milyonlarla dollarlıq qiymətə bərabərdir və NFT hərracında satıla bilər. Bu ilin martında rəssam Mayk Vinkelmannın 5000 rəqəmsal rəsm kollajı 69 milyon dollarlıq rekord məbləğə satılıb.

# "Vest Hem"i azərbaycanlı iş adamı alır?

***Azərbaycanlı iş adamı Nəsib Piriyevin rəhbərliyində yer aldığı "RAİ Capital" şirkəti İngiltərənin "Vest Hem" klubunu almaq istəyir.***

Apasport.az saytının məlumatına görə, Premyer Liqa klubunun potensial müştərisi bunun üçün 400 min funt sterlinq ödəməyə hazırdır.

Şirkət rəhbərliyinin belə istəyi birbaşa Piriyev amili ilə bağlıdır. "RAİ Capital"ın idarəetmə tərəfdaşı olan Piriyev "Vest Hem" azarkeşidir. O, 1986-cı ildən bu komandaya fanatlıq edir.

Qeyd edək ki, Piriyev həm də "PNN Group" və "AzMeCo"nun təsisçilərindən biridir.



# "Qəbələ" braziliyalı futbolçunun transferini açıqladı



***Yeni mövsümə hazırlaşan "Qəbələ" transfer çalışmalarını davam etdirir.***

Apasport.az klubun rəsmi saytına istinadən xəbər verir ki, "qırmızı-qaralar" heyətinə daha bir futbolçu qatıb.

Bu, braziliyalı müdafiəçi Ruan Renatodur. Öncədən də gözlənildiyi kimi, 27 yaşlı arxa xətt oyunçusu ilə 1+1 illik müqavilə imzalanıb.

Renatonun son klubu Braziliya təmsilçisi "Ponte Preta" olub. O, daha öncə vətənində "Santa Rita" (2015), "Quaratinqueta" (2015-18), "Yuventud" (2016-17, icarə əsasında), "Vitoriya" (2018-20), "Fiqueyrense" (2019, icarə əsasında), "Botafoqo" (2020, icarə əsasında), həmçinin Avstriyanın "Austriya" (2017-18, icarə əsasında) klublarında çıxış edib.

Qeyd edək ki, "Qəbələ" Renatoya qədər Urfan Abbasov, Məqsəd İsayev, Nicat Mehbalıyev, Kristof Atanqana-Assimba və İsnik Alimini heyətinə qatıb.